# Prezident Dünya İqlim Fəaliyyəti Sammitində



Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı Azərbaycana səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Prezident İlham Əliyev Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb. Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

SƏHİFƏ 2-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

2 DEKABR ŞƏNBƏ 2023 | 46 (4147) Qiyməti - 40 qəpik



## QAZAX GÖRÜŞÜNÜN ÇƏKDİYİ "QIRMIZI XƏTLƏR"

Sərhədlərin delimitasiyasının təhlükəsizliklə əlaqələndirilməsi komissiyalardan gərgin qrafik və sıx müzakirələr tələb edir. Yaqin elə buna görədir ki, komissiyalar növbəti müzakirələr üçün razılıq əldə ediblər.

SƏHİFƏ 3-də



## ALMANİYA FRANSANIN "BAZAR"INA GİRİR

Afrikada Fransanın yerini tutmaq uğrunda mübarizəyə Almaniya da qoşulur. Almanlar Afrika ölkələrilə danışıqları sürətləndiriblər. Mərakeş, Ruanda, Seneqal və Tunis ilə investisiya əməkdaşlığı barədə razılaşmalar əldə edilib.

SƏHİFƏ 6-da



## TÜRKİYƏ TURİZMİNƏ AÇILAN YENİ PƏNCƏRƏ

Diyarbəkir əsrlər boyu dini tolerantlıqdan uzaqlaşmayaraq, hər dövrdə etnik və dini mozaikasını qoruyub saxlamağa nail olub. Bu səbəbdən burada müxtəlif dövrlərə aid çoxlu məbəd tikilib və onların əksəriyyəti günümüzə qədər gəlib çatıb.

SƏHİFƏ 15-də



ABŞ ƏDALƏTSİZ MÖVQEYİNDƏN ƏL ÇƏKƏCƏKMİ?

# VAŞİNQTONUN İKİNCİ ŞANSI

ABŞ Azərbaycanla münasibətlərin korlanmasının onun maraqlarına ciddi zərbə vuracağını anlayır. Bu səbəbdən, Bakının haqlı tələbləri qarşısında geri çəkilmək, addımlarını korrektə etmək məcburiyyətindədir.

### ANTONİ BLİNKENDƏN GƏLƏN ZƏNG

Vaşinqtonla Bakı arasındakı münasibətlərdə yaşanan gərginlik ABŞ-nin geri addım atması ilə yerini nisbi sakitliyə verib. Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəngi proseslərin mənfi istiqamətdə inkişafını səngidib. Bir müddət əvvəl Konqresdə ölkəmizə qarşı bəzi qərarların qəbulu, Azərbaycanı sanksiyalarla hədələmək cəhdləri haqlı olaraq rəsmi Bakının ciddi etirazı ilə qarşılanmışdı.

### PRAQMATİK SİYASƏTİN REAL NƏTİCƏSİ

Bir daha təsdiqləndi ki, Azərbaycanı beynəlxalq səviyyədə vazkeçilməz tərəfdaşa və bölgənin əsas söz sahibinə çevirən əsas amil onun ali rəhbərliyinin yürütdüyü praqmatik siyasətdir. Bu siyasət yalnız haqq və ədalət tələb edir. Qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq onun əsas qayəsidir. Bütün maraqlı tərəflərin gözləntilərini qarşılayan bu siyasətlə bağlı haqsız gedişlər isə daha çox həmin qüvvələrin özlərinə qarşı əks effekt verəcək.

SƏHİFƏ 4-DƏ

GÜNEL BALAYEVANIN MARAQLI HƏYAT HEKAYƏSİ

## BİR PROTEZLƏ HƏYATI DƏYİŞƏN XANIM

"Atam xərçəng xəstəsi idi. Mənə görə çox kədərlənirdi. Bir anda ayağımın amputasiya olunmasına qərar verdim. Xəstəxanadan evə qayıtdıq və səhəri gün atama sevinclə gedək ayağımı kəsdirək dedim".




Onun həyatı 30 yaşından sonra başlayıb. Məhz bu yaşdan sonra həm şəxsi biznesini yaradıb pul qazanıb, həm də ailə qurub. 30-dan öncəki həyatı isə cəmiyyətdən gizlənərək, özü ilə təkbətək mübarizəsi ilə keçib. Fiziki məhdudiyyəti onu mənəvi olaraq da həyatdan qoparıb. Amma bir saatın içində verdiyi qərar bütün həyatını dəyişib. İndi isə özü kimi həyatdan küsənlərin motivasiya mənbəyidir. Müsahibimiz DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarı Günel Balayevadır.

SƏHİFƏ 8-9-da



## XANKƏNDİYƏ TƏHSİLLƏ QAYIDIRIQ

İşğaldan azad edilən ərazilərdə yaxın illərdə yeni üç ali təhsil müəssisəsinin inşası gözlənilir. Xankəndidə Qarabağ Universitetinin yaradılmasına dair sərəncam həmin layihənin ilk addımı kimi qiymətləndirilir.

SƏHİFƏ 5-də



## "İNDİ HƏR ADAMIN 2-3 KARTI VAR"

Kart məlumatlarını heç kimə verməyin, gələn linklərə daxil olmayın, hər zəng edən şəxsə aldanmayın. Tanımadığınız saytlarda kartınızdan ödəniş etməyin. Sosial şəbəkələrdəki kampaniyalara inanmayın.

SƏHİFƏ 13-də



## TARİXİ UĞURUN BİR ADDIMLIĞINDA

Əsas rəqibləri "Molde" ilə görüşdən bir xalla ayrılmağı bacaran ağdamlılar daha bir tarix yazmağa çox yaxındırlar. "Qarabağ"ın tarixində ilk dəfə Avropa Liqasının qrupundan ikinci yerin sahibi kimi çıxmaq imkanı var.

SƏHİFƏ 16-da



Türkiyəyə növbəti yardım

Səhifə 10-da



Hindistanın Qafqazdakı maraqları

Səhifə 7-də



Vergilər azaldıldı, bəs qiymətlər?

Səhifə 11-də



Alimentdə cins ayrı-seçkiliyi yoxdur

Səhifə 12-də



Bitki yağlarını ucuzlaşdıran səbəblər

Səhifə 14-də



# Nazir ATƏT-in Baş katibini məlumatlandırıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Skopye şəhərində ATƏT Nazirlər Şurasının 30-cu iclasında iştirakı çərçivəsində ATƏT-in Baş katibi Helqa Şmid ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsindən bildiriblər ki, görüş zamanı Azərbaycan-ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri, hazırda ATƏT-in üzləşdiyi çağırışlar, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov beynəlxalq hüququn əsas müddəalarına, o cümlədən ərazi bütövlüyü və suverenlik kimi təməl prinsiplərinə hörmətlə yanaşılmasında, bu prinsiplərin qorunub saxlanılmasında çoxtərəfli platformaların, o cümlədən ATƏT-in daha effektiv yanaşma sərgiləməsinin əhəmiyyətini vurğulayıb.

Ermənistanın götürdüyü öhdəliklərə zidd olaraq, Azərbaycan ərazilərindən silahlı qüvvələrini çıxarmaması fonunda ölkəmiz tərəfindən cari ilin sentyabr ayında 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirləri barədə qarşı tərəf məlumatlandırılıb.

Beynəlxalq təşkilatların nümayəndələrinin də təsdiqlədiyi kimi, bu prosesdə mülki şəxslərə qarşı heç bir zorakılıq faktının olmadığı vurğulanıb, erməni sakinlərin ərazilərimizi tərk etməsinə gəlincə, bunun məsuliyyətinin Ermənistanın və onun tabeçiliyində olmuş qondarma rejimin üzərinə düşdüyü vurğulanıb. Bu xüsusda, ərazi bütövlüyü və suverenliyin bərpası kimi beynəlxalq hüququn əsas prinsiplərinə münasibətdə ikili standartların, selektiv yanaşmanın tətbiqinin qəbuledilməzliyi qeyd olunub.

# Prezident Dünya İqlim Fəaliyyəti Sammitində



**Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı Azərbaycana səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.**

Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib. Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan Prezidentini qarşıladıqdan sonra birgə foto çəkdirilib.

### QARŞILIQLI FAYDALI ƏMƏKDAŞLIQ

Qeyd edək ki, Sammitin açılışının keçirildiyi gün həm də, Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü qeyd olunub. Bununla bağlı BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təbrik məktubu ünvanlayan Azərbaycan Prezidenti onu Dubayda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərinin 28-ci Konfransının rəsmi açılışı münasibətilə təbrik edib, tədbirin işində uğurlar arzulayıb. Dövlət başçısı bildirib ki, dini və mədəni köklərlə bir-birinə bağlı olan Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi məmnunluq doğurur: "Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimiz gündən-günə daha da möhkəmlənir, tərəfdaşlığımızın əhatə dairəsi genişlənir. Aramızdakı fəal siyasi dialoq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Ölkələrimizin dostluq ənənələrinin qorunub saxlanmasında, ikitərəfli münasibətlərimizin bugünkü səviyyəyə yüksəlməsində sizin böyük əməyiniz vardır".



### QARDAŞLIQ ƏLAQƏLƏRİNİN NÖVBƏTİ BARİZ TƏZAHÜRÜ

Təbrik məktubunda daha sonra vurğulanır ki, biz dost ölkə və etibarlı tərəfdaşımız olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrimizin dərinləşməsinə xüsusi əhəmiyyət verir, birgə fəaliyyətimizi yeni məzmunla zənginləşdirmək əzmindəyik: "Bu yaxınlarda ölkənizin "Masdar" şirkəti tərəfindən tikilən və regionda ən böyük günəş elektrik stansiyası olan Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılışı qardaşlıq əlaqələrimizin növbəti bariz təzahürüdür.

Əminəm ki, möhkəm təməllər üzərində qurulmuş ikitərəfli münasibətlərimiz və səmərəli, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafeləri naminə bundan sonra da birgə səylərimizlə uğurla inkişaf etməyə və güclənməyə davam edəcəkdir".

## BİRGƏ İNVESTİSİYA FONDUNUN ƏHƏMİYYƏTİ QEYD EDİLİB

Yeri gəlmişkən, Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Prezident İlham Əliyev noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin dörd nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirilib. Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edilib, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirilib.

SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti - ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulanıb.

Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edilib.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini Azərbaycana səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub. Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# QAZAX GÖRÜŞÜNÜN ÇƏKDİYİ "QIRMIZI XƏTLƏR"

Sərhədlərin delimitasiyasının təhlükəsizliklə əlaqələndirilməsi komissiyalardan gərgin qrafik və sıx müzakirələr tələb edir. Yəqin elə buna görədir ki, komissiyalar növbəti müzakirələr üçün razılıq əldə ediblər.



Şahin Mustafayev

Mqer Qriqoryan

AQŞİN KƏRİMOV

Noyabrın 30-da Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi altında sərhəd delimitasiyası üzrə dövlət komissiyalarının beşinci görüşü keçirildi. Görüşün məkanı Qazax-İcevan sərhədi seçilmişdi. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, tərəflər bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər. Eyni zamanda, komissiyalar arasında iclasların, birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətni ilkin olaraq razılaşdırılıb.

### SƏKKİZ KƏNDİN QAYTARILMASI REALLIĞI

Yayılan rəsmi məlumatdan yola çıxaraq qeyd edə bilərik ki, Azərbaycanla Ermənistan arasındakı sərhədlərin xəritə üzərində dəqiqləşdirilməsi üçün konstruktiv bir masa qurulmasına cəhd olunur. Bu, özü-özlüyündə Azərbaycan-Ermənistan sülh müqaviləsi proqramının "sərhəd cəbhəsindəki" dəqiq qaydaları və müəyyən ediləcək rejimi "qırmızı xətlər" nəzərə alınaraq təsvir edir.

Lakin bu "qırmızı xətləri" Ermənistanın təyin etmək iqtidarı yoxdur, bütün iplər və rıçaqlar Azərbaycanın əlindədir. Bu mənada görüş yerinin Qazax seçilməsi bir neçə açıq qalan məsələ üzrə həlli əhatə etmək gücündədir.

Azərbaycan məramlarına çatmaq üçün "A" variantı kimi diplomatik-siyasi potensialını xərcləyir. Bakının "A" seriyalı prioritetində dayanan budur ki, heç bir toqquşma olmadan Qazaxın yeddi kəndi (Bağanis Ayrım, Xeyrimli, Aşağı Əskipara, Yuxarı Əskipara, Bərxudarlı, Sofulu, Qızılhacılı) və Naxçıvan ərazisindəki Kərki kəndinin siyasi müzakirələr yolu ilə geri qaytarılması təmin edilsin.

İrəvanın Bakının bu şərtinə hansı məzmun və forma ilə cavabı maraqlıdır, təbii ki, söhbət burada şifahi bəyanatlardan yox, məhz praktiki olaraq atılacaq addımlardan gedir.

Azərbaycan əməli müstəvidə İrəvanın öhdəliklərindən qaçması təcrübəsini nəzərə alaraq Ermənistanı qeyd edilən mövzu ilə əlaqədar hiyləgər manevr imkanlarını basdırmaqda qətiyyət göstərir.

Bununla belə, Azərbaycan regional teatrda Ermənistanın da sağlam əsaslarla yer alması üçün təkliflər paketini təqdim edir. Bakının təzyiqləri yalnız İrəvanın revanşist ritorikasına qarşı yönəlir.

## SƏRHƏD BOYUNCA HƏR HANSI QARA NÖQTƏLƏRİN VARLIĞI QƏBULEDİLMƏZDİR

Azərbaycanın təzyiqlərinin sərhədlərlə bağlı səhnəsi bu xüsusda əhəmiyyətlidir. Çünki sərhəd təhlükəsizliyinin təmini birbaşa ölkədə daxili ictimai-siyasi tərəqqiyə, iqtisadi diversifikasiyalara müsbət təsir göstərərək onları daimi əsaslı möhkəmləndirir.

Azərbaycanın bununla əlaqədar ölçüləri Ermənistanın sərhəd boyunca mümkün təxribatlarını əhatə edəcək niyyətlərinə qarşı uzaqmənzilli aparatların təkmilləşdirməsini tələb edir. Çünki sərhəd boyunca hər hansı qara nöqtələrin varlığı Azərbaycanın strateji maraqları ilə ziddiyyət təşkil edir və kənar qüvvələrin bölgədə geosiyasi təsir alətləri yaratmaq bacarıqları hələ öləziməyib.

Ümumilikdə isə, sərhədlərin təhlükəsizliyi prioritetləri Azərbaycanın perspektivlə əlaqədar genişmiqyaslı strateji planının bir hissəsini əhatə edir. Azərbaycan sərhədlərin dayanıqlı etibarlı müdafiəsini təmin etməkdən ötrü delimitasiya kontekstini bir neçə istiqamətin içərisində inkişaf etdirir.

### SƏRHƏDLƏR BOYUNCA NİŞANLANMA QAYDALARI TƏRTİB EDİLMƏLİDİR

Birincisi, nəzərə alaq ki, delimitasiya tək Laçın, Kəlbəcər, Qubadlı, Zəngilanı deyil, həm də, Naxçıvanın, Tovuzun, Qazaxın, Gədəbəyin, Daşkəsənin Ermənistanla sərhəd zolağını əhatə etməlidir. Deməli, hərbi nöqteyi-nəzərdən sərhədlər boyunca nişanlanma qaydaları tərtib edilməlidir.



İkincisi, Azərbaycan, sərhədlərin təhlükəsizliyi zonasını Zəngəzur dəhlizi layihəsinin strateji məqsədləri ipindən ayrı tutmur. Bunun özü də Bakının müdafiə qüdrəti üçün nə qədər böyük hədəf qoyduğunu göstərir.

Üçüncüsü, Azərbaycan Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri dönüşünü reallaşdırmaqdan ötrü sərhədlərlə əlaqədar bəzi mübahisələri alternativ variantlarla həll etmək çağırışlarını icra edir.

Dördüncüsü və mürəkkəblik dozasına görə ən problemli məsələlərdən biri Azərbaycanın Ermənistandan təhlükəsizlik zonası tələb etməsidir. Hərçənd son zamanlar bu, rəsmi formada o qədər də gündəmə gətirilmir, lakin arxa planda da deyil.

Deyə bilərik ki, sərhədlərin delimitasiyasının təhlükəsizliklə əlaqələndirilməsi komissiyalardan gərgin qrafik və sıx müzakirələr tələb edir. Buna görədir ki, komissiyalar növbəti müzakirələr üçün razılıq əldə ediblər, bundan sonra aparılacaq danışıqlar tərəflərin sülh müqaviləsinin sərhəd bəndləri üzrə qərarlarını müəyyən edəcək.

## AZƏRBAYCAN DƏQİQ MÖVQE TƏLƏB EDƏCƏK

Azərbaycan çox güman ki, nəzərdə tutduğu hədəfləri Ermənistana daha açıq formada çatdıracaq və İrəvandan sülh, təhlükəsizlik üçün rəsmiləşən mövqe tələb edəcək. Delimitasiyanın hansı xəritələr üzərində aparılması barədə fikirlərə gəlincə, burada Azərbaycan tərəfindən bir neçə dəfə gündəmə gətirilən mövqelərə diqqət yetirmək lazımdır.

Ermənistanın şansları isə azdır, çünki onun effektiv və əhəmiyyətli mübarizə metodologiyası yoxdur. Bunu böyük bir gümanla, Ermənistan hakimiyyətindəki "parlaq zəka sahibləri" də anlayırlar. Bu baxımdan proqnozlaşdırmaq mümkündür ki, İrəvan ən azından yaxınmüddətli perspektivdə Azərbaycanın şərtlərinin bir qisminə "hə" deyəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# VAŞİNQTONUN İKİNCİ ŞANSI





**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Vaşinqtonla Bakı arasındakı münasibətlərdə yaşanan gərginlik ABŞ-nin geri addım atması ilə yerini nisbi sakitliyə verib. Dövlət katibi Antoni Blinkenin Prezident İlham Əliyevə zəngi proseslərin mənfi istiqamətdə inkişafını səngidib. Qeyd edək ki, bir müddət əvvəl Konqresdə ölkəmizə qarşı bir sıra qərarların qəbulu, yüksək səviyyəli rəsmilərin səfərinə tətbiq edilən məhdudiyyət, Azərbaycanı sanksiyalarla hədələmək cəhdləri haqlı olaraq rəsmi Bakının ciddi etirazı ilə qarşılanmışdı. Bu addımların qarşılıqlı olacağına dair Vaşinqtona ciddi xəbərdarlıq edilmişdi. Məlum telefon danışığında ən mühüm məqam ABŞ-nin öz səhvini anlaması və Bakının haqlı tələbləri ilə razılaşması idi. Belə ki, dövlət katibi Blinken münasibətlərin normallaşdırılması məqsədilə dekabrda köməkçisi Ceyms O'Braynın Azərbaycana səfərinə icazə verilməsini xahiş edib. Prezident İlham Əliyev həmin təkliflə bir şərtlə razılaşıb ki, bu səfərdən sonra Azərbaycanın yüksək səviyyəli rəsmilərinin ABŞ-yə səfərlərinə qoyulan əsassız qadağa aradan qaldırılsın. Dövlət katibi Blinken bunu qəbul edib.

### BU HƏMİN CEYMS O'BRAYNDIR Kİ...

Bu həmin Ceyms O'Brayndır ki, Konqresdə ölkəmiz əleyhinə bəyanatlar səsləndirmiş, Bakını sanksiyalarla hədələmişdi. Əslində, Vaşinqtonun onu şəxsən Bakıya göndərməsi diplomatik səviyyədə buraxılan səhvləri sığortalamağa cəhd kimi qiymətləndirilə bilər. ABŞ-nin xarici siyasətinə lobbi qruplarının nə dərəcədə təsir etdiyi çoxdan məlumdur. Lakin bu siyasət daha çox daxili maraqlara hesablanır. Burada Konqresdən fərqli olaraq Ağ Ev hər zaman daxili maraqlarla ABŞ-nin xarici hədəflərini balanslaşdırma yolunu tutub. Bu baxımdan, O'Braynın Bakı səfəri zamanı çantasında olacaq tezislər əslində münasibətlərin mövcud durumundakı nisbi sabitliyin hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirəcək. ABŞ administrasiyası qarşıdan gələn seçkidə erməni lobbisindən səs almaq üçün Azərbaycana qarşı demarşlarını davam etdirəcək, yoxsa illərlə strateji tərəfdaş adlandırdığı Bakı ilə korlanmış münasibətlərini yenidən düz müstəviyə çıxaracaq?



Ceyms O'Brayn

### AZƏRBAYCAN DÜNYADA YEGANƏ ÖLKƏDİR Kİ...

ABŞ-nin bölgə ilə bağlı siyasətinə baxdıqda Azərbaycanın nə dərəcədə vazkeçilməz tərəfdaş olduğu bir daha aydınlaşır. Hazırda Vaşinqton Rusiya və İrana qarşı aqressiv siyasət yürüdür. Azərbaycan dünyada yeganə ölkədir ki, hər iki ölkə ilə birbaşa quru sərhədinə malikdir. Həmçinin, Rusiyanın Cənubi Qafqazda sözünə etimad etdiyi, bərabərhüquqlu tərəfdaş qismində gördüyü yeganə dövlət Azərbaycandır. Tarixi təcrübə də göstərir ki, Azərbaycan bir neçə dəfə Moskva ilə Vaşinqton arasında aparılan ikitərəfli məsləhətləşmələrə ev sahibliyi edib. Bu görüşlər dünyanın iki super gücünün Bakıya strateji müttəfiq və etibarlı tərəfdaş qismində nə dərəcədə yüksək qiymət verdiyinin göstəricisi sayılır. İran amilinə gəldikdə isə, bir müddət əvvəl Bakı-Tehran münasibətlərində müşahidə olunan gərginlikdə Azərbaycanın heç bir təhdidə boyun əyməyəcəyini bütün dünya bir daha əyani şəkildə gördü. Sirr deyil ki, bu gün beynəlxalq aləmdə milli maraqlarını öz gücü, imkanları, praqmatik siyasətilə müdafiə etməyi bacaran ölkələrə daha çox hörmətlə yanaşırlar.

## "MƏRKƏZİ ASİYANIN QAPISI"

Hazırda Mərkəzi Asiya regionunun da Qərb, xüsusilə ABŞ üçün strateji əhəmiyyəti artır. Rusiya və Çin amilini neytrallaşdırmaq üçün Qərb diplomatları intensiv şəkildə bölgəyə səfərlər edir, Mərkəzi Asiyanın Qərb bazarlarına inteqrasiyası üçün müxtəlif təşəbbüslər irəli sürürlər. Bu təşəbbüslərin reallaşması üçün ən mühüm amil Bakının yaratdığı imkanlardır. Dünyada "Mərkəzi Asiyanın qapısı" adlandırılan ölkəmizin geosiyasi və coğrafi mövqeyi Qərbin uzunmüddətli hədəflərinin reallaşmasında açar rolunu oynayır. Həmçinin, Mərkəzi Asiya ölkələri ilə Bakının ikitərəfli münasibətləri də çox yüksək səviyyədədir. Vaşinqtonda anlayırlar ki, Bakı ilə münasibətlərdə yaranan soyuqluq, Azərbaycanın milli maraqlarının nəzərə alınmaması, onunla təzyiq və təhdid dilində danışmaq Mərkəzi Asiya ölkələri tərəfindən də ən azı xoş qarşılanmayacaq. Onlar da gələcəkdə eyni münasibətlə üzləşə biləcəklərini nəzərə alaraq Qərblə münasibətlərdə müəyyən korrektələrə gedə bilərlər. İndiki məqamda belə vəziyyətin yaranması Vaşinqtona heç sərf etmir.

## ALTERNATİV MƏNBƏ, ETİBARLI TƏRƏFDAŞ, STRATEJİ MÜTTƏFİQ

Ukraynadakı müharibə səbəbindən Rusiya ilə bütün enerji əlaqələrini minimuma endirən Qərb dövlətlərinin də ABŞ-dən mühüm gözləntiləri var. Təbii ki, əsas məsələ enerji təhlükəsizliyinin təmini, bu istiqamətdə etibarlı tərəfdaşların tapılmasıdır. Azərbaycan uzun illərdir ki, Qərbin enerji təminatında etibarlı tərəfdaş statusunu qazanıb. Hazırda Bakı Avropanın neft-qaz, yaşıl enerji ilə təmini istiqamətində gələcəyə hədəflənən strateji layihələrin əsas oyunçularından biri sayılır. İstər Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının, istərsə də Azərbaycanın özünün enerji potensialının Qərbə çatdırılmasına manеələr yarada biləcək siyasi gedişlər Avropa paytaxtlarının Vaşinqtona qarşı demarşı ilə müşahidə olunacaq.

### HAQQ VƏ ƏDALƏT TƏLƏB EDƏN SİYASƏT

Yekun olaraq bir daha təsdiqləndi ki, Azərbaycanı beynəlxalq səviyyədə vazkeçilməz tərəfdaşa və bölgənin əsas söz sahibinə çevirən əsas amil onun ali rəhbərliyinin yürütdüyü praqmatik siyasətdir. Bu siyasət yalnız haqq və ədalət tələb edir. Qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq onun əsas qayəsidir. Bütün maraqlı tərəflərin gözləntilərini qarşılayan bu siyasətlə bağlı haqsız gedişlər isə, daha çox həmin qüvvələrin özlərinə qarşı əks effekt verəcək. Bunu həm Vaşinqtonda, həm də digər beynəlxalq mərkəzlərdə artıq gözəl anlayırlar. Xüsusilə, ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin bərpa edildikdən sonra...





# XANKƏNDİYƏ TƏHSİLLƏ QAYIDIRIQ

İşğaldan azad edilən ərazilərdə yaxın illərdə yeni üç ali təhsil müəssisəsinin inşası gözlənilir. Xankəndidə Qarabağ Universitetinin yaradılmasına dair sərəncam həmin layihənin ilk addımı kimi qiymətləndirilir.



KÖNÜL CƏFƏRLİ

Xankəndidə Qarabağ Universiteti yaradılacaq. Bu barədə Prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırıb. Bəs adı ilə düşmənə göz dağı olacaq ali təhsil müəssisəsi bizə nə qazandıracaq?

### KADR HAZIRLIĞI TƏLƏBATA UYĞUN MÜƏYYƏNLƏŞDİRİLƏCƏK

Təhsil eksperti Elçin Süleymanovun sözlərinə görə, Qarabağ Universiteti mövcud baza əsasında inşa olunacaq: “Universitetdə regionun sosial-iqtisadi ehtiyaclarına uyğun kadr hazırlığının planlaşdırıldığı sərəncamda da qeyd edilib. Düşünürəm ki, Qarabağda kənd təsərrüfatı, turizm, eyni zamanda alternativ enerji, “smart city”, informasiya texnologiyaları (İT) sektoru üzrə peşəkar kadrların yetişdirilməsinə önəm veriləcək. Bu, həm regionun pedaqoji kadr ehtiyacının ödənməsinə, həm də kənd təsərrüfatı, eləcə də sənayenin inkişafına töhfə verəcək kadrların hazırlanmasına xidmət edəcək”.



Elçin Süleymanov

Təhsil eksperti bildirib ki, işğaldan azad edilən ərazilərin inkişafı, bərpası ilə əlaqəli müxtəlif dövlət proqramları həyata keçirilir: “Yaxın illərdə işğaldan azad edilən ərazilərdə yeni üç ali təhsil müəssisəsinin inşası gözlənilir. Bu sərəncam həmin layihənin ilk addımıdır. Böyük ehtimalla Şuşada, eləcə də Ağdamda da ali təhsil müəssisələri açılacaq. Qarabağda inşa ediləcək ali təhsil ocaqları da tarixi universitet ənənələri üzərindən formalaşacaq”.

### XANKƏNDİYƏ QAYIDIŞ BAŞLAYIR

Millət vəkili Aqil Abbas deyir ki, Qarabağ Universitetində təxminən 5-10 min tələbə təhsil alacaq: “Bu tələbələrə dərs demək üçün yüzlərlə müəllimə də ehtiyac olacaq. Bu layihənin icrası Xankəndiyə yeni ruh qatacaq. Gənc nəslin oraya axını, ailələrin Xankəndiyə köçürülməsi oradakı həyatı daha da rəngarəng edəcək. Qarabağda universitetin fəaliyyətə başlaması Bakının tələbə yükünü də azaltmış olacaq. Tələbələrin bu universitetə üstünlük verməsi də vacibdir. Hətta Ağdamda da bir neçə ali təhsil müəssisəsinin açılışı gözlənilir”.

Millət vəkili bildirir ki, 1969-cu ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Xankəndi yenidən azərbaycanlaşmağa başlayıb. Həmin vaxt orada Pedaqoji İnstitutun filialı yaradılıb, 100-dən çox müəllim ailəsi ilə oraya köçürülüb. İnstitutda ermənilərin cəmi bir fakültəsi olub, qalan bütün heyət texniki işçiyə qədər azərbaycanlılardan təşkil edilib: “Fabrik və zavodlar inşa edildi. Ermənilərin bu zavodları işlətməyə gücü çatmadı. Ona görə də yenə yaxın kəndlərdə yaşayan azərbaycanlılar bu fabrik və zavodlarda işə cəlb edildilər. Onlar üçün də Heydər Əliyev böyük bir mikrorayon tikdirdi, məktəblər açdırdı. Beləliklə, Xankəndidə təxminən 15 min azərbaycanlı məskunlaşdı. Xankəndidə hamı Azərbaycan dilində danışırdı. Bu gün də ulu öndərin siyasi varisi İlham Əliyev atasının yolunu davam etdirdi. Qarabağa qayıdışımız yenə təhsil ilə başlayır. Bir xalqın gələcəyi savadlı gənclikdir. Gənclik olan yerdə həyat var, musiqi var, mədəniyyət var, sevgi var”.



Foto: Ehtiram Jabi-Global Media Group

Aqil Abbas

Vüqar Oruc

## ƏCNƏBİ TƏLƏBƏLƏR DƏ TƏHSİL ALACAQLAR

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri, iqtisadçı ekspert Vüqar Oruc bildirib ki, ölkə başçısının imzaladığı sərəncam 30 ildən artıq düşmən işğalında qalan və nəhayət azad edilən Qarabağımızın inkişafına təkan verəcək: “Bu sərəncamın icrası işğaldan azad edilən ərazilərin Azərbaycana reinteqrasiyası üçün yaxşı şərait yaradacaq. Ümummilli lider Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərlik etdiyi dönəmlərdə Qarabağda Azərbaycan Pedaqoji Universitetinin filialı açılmışdı. Həmin bazada artıq yeni universitet yaradılır. Bu universitet beynəlxalq standartlara cavab verən müasir ali təhsil müəssisəsi olacaq. Düşünürəm ki, Qarabağ Universiteti ölkə üzrə fəaliyyət göstərən ali təhsil ocaqları içərisində pilot layihə olacaq. Digər universitetlərdən fərqli olaraq, bu universitetin yaradılmasında kampların, universitet şəhərciyinin, o cümlədən tədris bazasının publik şəxs kimi formalaşdırılması bunu deməyə əsas verir ki, layihə özlüyündə ən müasir texnologiyaları ehtiva edəcək. Qarabağ Universiteti gələcəkdə tək yerli tələbələrin deyil, əcnəbi tələbələrin də təhsil ala biləcəyi təhsil müəssisəsinə çevriləcək”.

### ƏHALİ BU BÖLGƏYƏ İSTİQAMƏTLƏNƏCƏK

İqtisadçı ekspert onu da qeyd edib ki, Qarabağ Universiteti həm də Xankəndidə əhalinin sıx yaşamasına təkan verəcək: “Təhsil müəssisələri olan ərazilərdə əhalinin sıxlığı heç kimə sirr deyil. Bu cür infrastrukturun qurulması, təhsil müəssisələrinin, inzibati idarələrin, qurumların yaradılması əhalinin bu bölgəyə istiqamətlənməsinə gətirib çıxaracaq”.

V.Oruc universitetin açılmasının burada yeni iş yerlərinin formalaşmasına da təsir edəcəyini deyib: “Universitetin açılması bu ərazilərdə vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə də xidmət edəcək. Bu, yüzlərlə yeni iş yeri deməkdir”.

## TARİXİ TORPAQLARIMIZA MÖHTƏŞƏM DÖNÜŞ

Xalq artisti Mənsum İbrahimov isə düşünür ki, Azərbaycan bayrağının Xankəndidə dalğalanması qürurvericidir: “Qarabağda Azərbaycan ordusunun zəfər paradı keçirildi, mədəniyyətimizin təbliğinə xidmət edən “Xarı Bülbül” festivalı gerçəkləşdirildi. Bu gün də təhsil sahəsində Qarabağ Universitetinin inşası ilə bağlı ölkə başçısının qərarını alqışlayıram. Bütün bunlar onu deməyə əsas verir ki, Qarabağ Azərbaycanın ayrılmaz parçasıdır. Əbədi-əzəli torpaqlarımıza təhsil ilə qayıtmağımız çox möhtəşəmdir. Növbəti ildən gənclərimizin Qarabağımızda təhsil almasını diləyirəm”.



Mənsum İbrahimov



# Almaniya Fransanın “BAZAR”INA GİRİR




Afrikada Fransanın yerini tutmaq uğrunda mübarizəyə Almaniya da qoşulur. Almanlar Afrika ilə iqtisadi əməkdaşlığın güclənməsi üçün danışıqları sürətləndiriblər. Mərakeş, Ruanda, Seneqal və Tunis ilə investisiya əməkdaşlığı ilə bağlı razılaşmalar əldə edilib.



AZƏR NURİYEV

Fövqəldövlətlərin Afrika uğrunda mübarizəsi qızışır. “Qara qitə”dən qovulan Fransanın yerini tutmaq uğrunda iri dövlətlərin rəqabəti artır. Rusiya, ABŞ, Türkiyə və Çinin rəqabət apardığı bölgə uğrunda mübarizəyə Almaniya da qoşulub. Hamı kimi Berlini də bölgənin karbohidrogen ehtiyatları maraqlandırır. Almaniya Afrika ilə iqtisadi iş birliyinin güclənməsi üçün danışıqları sürətləndirib. Mərakeş, Ruanda, Seneqal və Tunis ilə investisiya əməkdaşlığı barədə razılaşmalar əldə edilib. Berlin eyni zamanda, təbii qaz ehtiyatlarına görə Afrikanın lideri olan Nigeriyadan təbii qaz tədarükünə ümid edir. Kansler Olaf Şolts bəyan edib ki, müqavilələrin konkret həcmi, məbləği Almaniya və Nigeriya şirkətləri arasında aparılan danışıqlar zamanı müəyyən edilməlidir. Berlin eyni zamanda tək iqtisadi deyil, siyasi cəhətdən də bölgədə möhkəmlənməyə çalışır.

### ƏBƏDİ VƏ ƏZƏLİ RƏQİBLƏR

2017-ci ildə Almaniya “G20” sammiti çərçivəsində “Afrika ilə Pakt” təşəbbüsünə imza atıb. Pakt “G20”nin o zamankı sədri Almaniyanın təşəbbüsü ilə imzalanıb. Berlin loyallıq müqabilində “Pakt”a üzv olan ölkələrə maliyyə və hərtərəfli yardım təklif edib. Hazırda 13 dövlət də bu təşəbbüsə qoşulub. Artıq Berlində Afrika dövlətlərinin liderləri ilə sayca beşinci görüş baş tutub. İlk belə görüşü altı il əvvəl keçmiş kansler Angela Merkel keçirmişdi. Sonra o, “qara qitədə” alman sərmayəsi üçün şərait yaratmağı və onun sakinlərinin rifahının yaxşılaşdırılmasına kömək etməyi qarşısına məqsəd qoydu. Məhz o zaman almanlar Afrika üçün oradan “Köhnə Dünya”ya miqrasiya axınının azalması üçün “Marşall planı” haqqında danışmağa başladılar.

Bəs reallıqda Almaniyanın Afrikaya nüfuz etməsi mümkündürmü? Çoxları hesab edir ki, bu, realdır və yaxın gələcəkdə baş verəcək. Almaniya sadəcə Fransa kimi nüfuz etdiyi əraziləri istismar etmir. İnvestisiya yatırıb, əməkdaşlıq istəyir.

## “SİZ ALMANİYAYA TƏRƏFDAŞ KİMİ ARXALANA BİLƏRSİNİZ”

Kansler Olaf Şoltsun sözlərinə görə, “Pakt” çərçivəsində aparılan islahatlar təşəbbüsdə iştirak edən ölkələrdə iqtisadi artımı təmin edib. “Pakt bir siqnal göndərmək məqsədi daşıyır - siz Almaniyaya tərəfdaş kimi arxalana bilərsiniz”, - deyə Almaniya hökumətinin başçısı vurğulayıb. Alman Ticarət və Sənaye Palataları Assosiasiyasının Afrika üzrə mütəxəssisi Heiko Sviderovski bildirib ki, “Pakt”a maraq durmadan artır. O, bundan əvvəl 800 nümayəndənin iştirakı ilə keçirilən investisiya konfransının Almaniya ərazisində indiyədək keçirilən ən böyük biznes forum olduğunu vurğulayıb. “Bavariya Radio” portalının qeyd etdiyi kimi, Berlin görüşü daha çox investor görüşü xarakteri daşıyıb və burada əsas mövzular Afrikadan Avropaya enerji resurslarının və xammalın tədarükü və “qara qitə” üçün mütəxəssislərin hazırlanması olub. Status-kvoya nəzər salsaq, Avropanın ən böyük iqtisadiyyatı olan Almaniya Afrikaya sərmayə qoyuluşu baxımından geri qalır. 2016-2020-ci illər arasında Almaniya Afrikaya 9,7 milyard avro birbaşa investisiya yatırıb. Bu, digər Avropa ölkələri ilə müqayisədə cüzidir: “Almaniya qitəyə Fransanın yarısı və Böyük Britaniyanın beşdə üçü qədər sərmayə qoyur. Alman şirkətlərinin 2022-ci ildə xaricə yatırdığı 163,7 milyard avronun yalnız 1%-i Afrikaya gedib. Üstəlik, bu birbaşa investisiyaların yarıdan çoxu 400-ə yaxın alman şirkətinin fəaliyyət göstərdiyi Cənubi Afrika Respublikasına yönəldilib. Bunun əksinə olaraq, Afrikanın ən böyük iqtisadiyyatı olan Nigeriyada cəmi 30 alman şirkəti fəaliyyət göstərir”.



Heiko Sviderovski

## “YAŞIL ENERJİ” LAYİHƏLƏRİNƏ DÖRD MİLYARD AVRO YÖNƏLDİLƏCƏK

Almaniya 2030-cu ilə qədər qitədəki “yaşıl enerji” layihələrinə dörd milyard avro yönəldəcəyini vəd edib. Bu pul xüsusilə günəş elektrik stansiyaları şəbəkəsinin genişləndirilməsinə sərf olunacaq. Almaniya ehtiyac duyduğu yaşıl hidrogenin “çox hissəsini” Afrikadan idxal etmək niyyətində olduğunu bəyan edib. İlkin mərhələdə hidrogen istehsalı əhəmiyyətli investisiya tələb edir, ona görə də uzunmüddətli və sabit əməkdaşlıq üçün aydın siqnallar lazımdır. Öz növbəsində nazir Habek qeyd edib ki, Afrikada bərpa olunan mənbələrdən elektrik enerjisi istehsalı ümumi həcmin cəmi bir faizini təşkil edir. Bununla əlaqədar olaraq o, afrikalı tərəfdaşlarına “yaşıl” elektrik enerjisi istehsalı üçün qabaqcıl alman texnologiyasını paylaşmağa söz verib.

Artıq Almaniya bərpaolunan enerji layihələrinə sərmayə qoyuluşu müqabilində Nigeriya ilə əlavə qaz tədarükü barədə razılığa gəlib. Nigeriyanın Riverside LNG şirkəti ilə Almaniyanın “Johannes Schuetze Energy Import” şirkəti arasında bağlanmış anlaşma memorandumuna uyğun olaraq, bu ölkə Almaniyaya hər il 850 min ton mayeləşdirilmiş təbii qaz (LNG) ixrac edəcək. Almaniyanın ümumi LNG idxalının 2 faizini təşkil edəcək Nigeriyadan ilk daşınmaların 2026-cı ildə başlanması gözlənilir. Gələcəkdə Nigeriyadan LNG-nin tədarük həcminin 1,2 milyon tona çatdırılması planlaşdırılır.

### BERLİN PEKİNƏ, MOSKVAYA RƏQİB OLA BİLƏCƏKMİ?

Alman siyasətçiləri və rəsmiləri Afrikaya sərmayə qoyuluşundan danışsalar da, Çin artıq oraya milyardlarla dollar sərmayə qoyub. Afrikadakı Rusiya isə sovet dövründən və müstəmləkəçilik əleyhinə mübarizədən yadda qalıb. Avropa və ABŞ dünyanın ikinci ən sıx məskunlaşdığı qitədə geosiyasi təsir, mineral ehtiyatlar, yeni iqtisadi imkanlar uğrunda Rusiya və Çinlə mübarizə aparır.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi




# HİNDİSTANIN QAFQAZDAKI MARAQLARI

Hindistandan Avropaya quru yolun açılması üçün Azərbaycanın reallaşdırdığı beynəlxalq layihələr, xüsusən də Zəngəzur dəhlizi ideal variantdır. Artıq rəsmi Dehli də anlayır ki, Qafqaz regionu ilə bağlı nəzərdə tutulan istənilən layihənin reallaşması Bakının icazəsi və iştirakı olmadan qeyri-mümkündür.

**FUAD ABASOĞLU**

Son zamanlar Hindistanın Ermənistanla ikitərəfli münasibətlərinin istiləşməsinin şahidi oluruq. Müxtəlif sahələrə dair müqavilələr imzalanır, qarşılıqlı səfərlər reallaşdırılır. Dehlinin hay ölkəsinə artan marağının arxasında bir sıra iqtisadi və geosiyasi maraqların dayandığı şəksizdir. Regionla quru sərhədi olmayan Hindistanın Paşinyan hökumətinə "sevgisi"nin pərdəarxasında Pakistanla olan rəqabətlə yanaşı, bəzi geosiyasi planlarını erməni hökuməti vasitəsilə həyata keçirmək niyyəti də durur. İki ölkə arasındakı münasibətlərdə artan dinamika Azərbaycan tərəfindən də diqqətlə izlənilir. Xüsusilə də İrəvanın silahlandırılması cəhdləri...

### SİLAH SATIŞININ PƏRDƏARXASI

2020-ci ildə Ermənistan Hindistandan dörd "Svati" mobil radar sistemi alıb, 2022-ci il sentyabrında isə "Pinaka" reaktiv yaylım atəşi sistemləri, tank əleyhinə raketlər və müxtəlif növ raketlərin alınması üçün 245 milyon dollarlıq müqavilə imzalanıb. Bu yaxınlarda Hindistan İrəvana 150 min ədəd qumbara satışı həyata keçirib. Hindistanın "Bharat Forge" şirkəti "MARK 155" təkərli haubitsaların Ermənistan üçün nəzərdə tutulduğunu təsdiqləyib.

Təbii ki, Azərbaycanın Pakistanla hərbi sahədə əməkdaşlığı hind hökumətinin nəzərindən yayınmayıb. Dehli bu səbəbdən Ermənistanı seçib. Eyni zamanda, Hindistanın İrəvana tədarük etdiyi silahların sayına qədər KİV-lərdə yayılması bu müqavilələrin ucuz təbliğat aksiyası olmasından xəbər verir. Silah satışı ölkələr arasında strateji müqavilə sayılır, detalların mətbuata sızması çox nadir hallarda müşahidə edilir. Dehli isə Ermənistana satdığı silahları sayına və modifikasiyasına qədər detallı şəkildə mətbuat vasitəsilə yaymaqla regiondakı silah alverçilərindən birinə çevrilmək niyyətini güdür.

Rəsmi Dehlinin Pakistan amilinə görə Azərbaycanı yox, Ermənistanı dəstəkləməsi 44 günlük müharibə və sonrakı dövrdə ermənilərin tərəfini tutan bəyanatlarda da əksini tapıb.




## ERMƏNİSTANA "SEVGİ" TƏK SİLAH ALVERİ İLƏ MƏHDUDLAŞMIR

Hindistanın Ermənistan "sevgisi" tək silah alveri ilə məhdudlaşmır. Dehlinin burada iqtisadi maraqları da var. Hindistan hökuməti Ermənistanı ölkəsini İran vasitəsilə Avropa ilə birləşdirən dəhlizə çevirmək istəyir. Rəsmi Dehli transkontinental dəmir yollarının tikintisi ilə Cənub-Şimal dəhlizini reallaşdırmaq məqsədi güdür. Pakistan Hindistanın Avropa və Mərkəzi Asiyaya çıxan quru yollarını bağladığı üçün hind hökuməti bu layihə vasitəsilə yeni quru yolları əldə etmək həvəsindədir. Bundan əlavə, Cənub-Şimal dəhlizi İranı Çinin orbitindən çıxarmağa və Pekinin regiondakı infrastruktur layihələrini mühasirəyə almağa hesablanıb. Çünki Çin Asiya regionunda hind hökumətinin ciddi iqtisadi rəqibi sayılır.



### HİNDİSTANIN MÖVQEYİNDƏ DƏYİŞİKLİKLƏR MÜŞAHİDƏ OLUNUR

Son günlər isə Hindistanın geosiyasi mövqeyində dəyişikliklər müşahidə olunur. Bu dəyişikliklərin səbəbi Ermənistanın həm hərbi, həm də diplomatik sahədə Azərbaycan tərəfindən məğlub edilməsidir. Eyni zamanda, rəsmi İrəvanın Rusiya ilə münasibətləri tam gərginləşdirərək Qərbin qucağına sığınması da Hindistanın çox istədiyi dəhliz layihəsinin baş tutmayacağı mənasına gəlir. Narendra Modi hökuməti Qafqazda əsas iqtisadi tərəfdaş kimi Ermənistana güvənməyin riskli olduğunu artıq dərk edir. Bu ölkəyə İranın şimali-qərbindən Cənubi Qafqaz vasitəsilə Rusiyaya və ya Qara dənizə keçmək üçün dəmir yolu lazımdır. Məlum vəziyyətdə Hindistanın iki seçimi var: Ermənistanın cənubundakı Zəngəzur vilayəti, digəri isə Azərbaycan üzərindən Xəzər dənizi vasitəsilə.

## HİNDİSTAN ÜÇÜN ƏN OPTİMAL VARİANT AZƏRBAYCANDIR

ZƏNGƏZUR DƏHLİZİ



Regionda yaranan yeni geosiyasi reallıq isə sübut edir ki, Hindistanın Avropaya quru yolla daxil olması üçün Azərbaycanın reallaşdırdığı beynəlxalq layihələr, xüsusən də Zəngəzur dəhlizi ideal variantdır. Artıq rəsmi Dehli də anlayır ki, Qafqaz regionu ilə bağlı nəzərdə tutulan istənilən layihənin reallaşması Bakının icazəsi və iştirakı olmadan qeyri-mümkündür. Onsuz da İran-Hindistan-Ermənistan arasında nəzərdə tutulan layihəyə sözügedən tərəflərdən heç biri maliyyə ayırmaq istəmir. Hind hökumətinin Paşinyan vasitəsilə həyata keçirmək istədiyi dəhliz layihəsi suya düşmək üzrədir. Bu səbəbdən hind rəsmiləri başqa variantlar üzərində düşünürlər və bu variantlar sırasında Azərbaycan ən uyğun variant kimi görünür.

Ermənistan hökuməti isə, "Sülhün kəsişməsi" layihəsinə aid xəritəni qoltuğuna vuraraq Qərbin siyasi kulislərini gəzir. Hiyləgər Qərb siyasətçiləri saxta təbəssümlə "yes, yes" desələr də, Paşinyanın layihəsinə hələlik müsbət cavab verən olmayıb.

Ermənistanın məğlubiyyəti fonunda rəsmi Dehli regionda artıq dəyişmiş geosiyasi reallıqlara uyğun xarici siyasətini yenidən formalaşdırmış kimi görünür. Şübhəsiz ki, onlar infrastruktur əlaqələri üçün siyasətlərini yenidən nəzərdən keçirməli olacaqlar. Qafqazda dəyişən reallığa uyğunlaşmaq isə Narendra Modi hökumətinə faydadan başqa heç nə gətirməz. Çox güman ki, yaxın vaxtlarda Hindistanın bəzi ambisiyalarından vaz keçərək Azərbaycana yaxınlaşacağının şahidi olacağıq.

ÖZÜ KİMİ HƏYATDAN KÜSƏNLƏRİN MOTİVASİYA MƏNBƏYİNƏ ÇEVRİLƏN GÜNEL BALAYEVANIN HƏYAT HEKAYƏSİ "KASPİ"DƏ




SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ

aygunaziz@kaspi.az


# BİR PROTEZLƏ HƏYATI DƏYİŞƏN XANIM

*"Atam xərçəng xəstəsi idi. Mənə görə çox kədərlənirdi. Bir anda ayağımın amputasiya olunmasına qərar verdim. Xəstəxanadan evə qayıtdıq və səhəri gün atama sevinclə gedək ayağımı kəsdirək dedim".*

Onun həyatı 30 yaşından sonra başlayıb. Məhz bu yaşdan sonra həm şəxsi biznesini yaradıb pul qazanıb, həm də ailə qurub. 30-dan öncəki həyatı isə cəmiyyətdən gizlənərək, özü ilə təkbətək mübarizəsi ilə keçib. Bu yaşa qədər özünü cəmiyyətə, özünə belə yararsız hiss edib. Fiziki məhdudiyyəti onu mənəvi olaraq da həyatdan qoparıb. Amma bir saatın içində verdiyi qərar bütün həyatını dəyişib. İndi isə özü kimi həyatdan küsənlərin motivasiya mənbəyidir. Müsahibimiz DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarı Günel Balayevadır.

## "MƏNİ MƏKTƏBDƏN DƏ ETDİ, DOSTLARIMDAN DA..."

Bakıda dünyaya gəlib. Uşaqlıqda topuğunda yaranan şişlə çətin günləri başlayıb: "Ailəm məni müalicə üçün Moskvaya aparıb. Lakin səhv müalicə nəticəsində ayağım inkişafdan qaldı. Üçüncü sinfə qədər ayağımı tam yerə basa bilməsəm də, məktəbə gedib-gələ bilirdim. Amma bunun ardınca aldığım travma bütün həyatımı dəyişdi. Məni məktəbdən də etdi, dostlarımdan da..."

## "BİR ANDA DAŞLARIN ALTINDA QALDIM"

Günel qardaşı ilə həyətdə oynayarkən qonşunun daş hasarı onun üzərinə aşıb. Ən böyük zərbə isə ona çətinlik yaradan ayağına dəyib. O, bunu qismət adlandırır: "Bir anda daşların altında qaldım. Qəribəsi odur ki, sanki bütün daşlar həmin ayağımın üzərinə düşmüşdü. O gündən sonra həmin ayağımı bir də hərəkət etdirə bilmədim. 16 yaşımda həkimlər amputasiya etdirməyi məsləhət gördülər. Lakin razılaşmadım. Fəaliyyəti olmasa da, ayağımdan imtina etmək, kəsdirmək mənim üçün ağır qərar idi. On il evdə, bütün cəmiyyətdən bağımı qopararaq tək ayaqla yaşadım. Nə çəlikdən istifadə etdim, nə də arabadan".

## "CƏMİYYƏTƏ QAYNAYIB-QARIŞMAQDAN ÇƏKİNİRDİM"

Günel deyir ki, onu cəmiyyətdən təcrid edən və ən çox incidən söz "aman Allah, nə gözəl qızdır, heyif ki, ayağı yoxdur" ifadələri olub: "Əslində, ailəm mənə həmişə dəstək olub. Heç vaxt zəif insan kimi baxmayıb. Onların yazıq baxışlarını da hiss etməmişəm. Amma özüm çox utanırdım. Elə bilirdim ki, çölə çıxsam, hamı mənə aciz, yazıq kimi baxacaq. Cəmiyyətə qaynayıb-qarışmaqdan çəkinirdim. Çünki qonşulardan, ətrafdan özüm haqqında daim eşidirdim. Məni ən çox incidən, bəlkə də insanlardan küsdürən söz "aman Allah, nə gözəl qızdır, heyif ki, ayağı yoxdur" idi. Ailəm dəstək olsa da, belə ifadələr, sözlər mənə əngəl olurdu. İki bacı, iki qardaşıq. Onlar həmişə yanımda olub. Evin içində on il tək ayaqla gəzəndə də, onlar mənə kömək edirdilər".

*"Buraya gəldikdən sonra anladım ki, utanmalı heç nə yox imiş. Heç cəmiyyət də məni təsəvvür etdiyim kimi pis qarşılamadı. Orada başa düşdüm ki, məhdudiyyət ayaqda, əldə yox, insanın beynində olur."*

## "GEDƏK AYAĞIMI KƏSDİRƏK" DEDİM"

On il sonra 26 yaşında Günelin atası "bəlkə tibb inkişaf edib, bəlkə çarəsi var" ehtimalı ilə yenidən xəstəxanaya üz tutur. Nəticəsi məlum olmayan, ağır və kifayət qədər baha olan müalicə metodu var idi. Lakin Günel fiziki cəhətdən bu əzabı qaldıra bilməyəcəyini düşünür və bir saatda amputasiya qərarını verir: "Həkim dedi ki, bunun əməliyyatı var, amma nəticəsi dəqiq deyil. Üstəlik, sağalmaq ehtimalı üçün 10-a yaxın əməliyyata ehtiyac var idi. Maddi baxımdan ailəm çətinliklə olsa da, təmin edəcəkdi. Amma buna mənəvi gücüm yox idi. Atam xərçəng xəstəsi idi. Mənə görə çox kədərlənirdi. Bir anda ayağımın amputasiya olunmasına qərar verdim. Xəstəxanadan evə qayıtdıq və səhəri gün atama sevinclə gedək ayağımı kəsdirək dedim".

## "MƏNİM ÜÇÜN DƏHŞƏTLİ GÖRÜNƏN O QƏRAR XİLASKARIM İMİŞ..."

Həmsöhbətimiz ailəsinin üzülməməsi üçün on il ona dəhşətli gələn qərarı verir. Amma bu qərar sözün əsl mənasında sehrli çubuq kimi həyatına toxunur və gözəlləşdirir. O, 26 yaşında həyatını dəyişən protezi ilə tanış olur: "Hər şərdə xeyir var, deyirlər. Mənim üçün dəhşətli görünən o qərar, xilaskarım imiş. Protezimi ilk gündən sevməyə başladım. Hətta həkimlər "ayağımı" ilk dəfə gətirəndə, məni güldürmək üçün "dırnaq"larına lak da çəkmişdilər. Protezlə ilk tanışlığım belə pozitiv olmuşdu. Protezimə alışdıqdan sonra Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinə müraciət etdim. Orada peşə öyrənməyə başladım. Həm xəyalım olan dərzilik qabiliyyətimi inkişaf etdirdim, həm də muncuqdan müxtəlif aksesuarlar, təsbeh düzəltməyi öyrəndim. İndi əl işlərimi düzəldib satıram, sərgilərdə iştirak edirəm. Ayağımı amputasiya etdirdikdən sonra nəinki evdən çıxdım, ailə də qurdum, karyera da".



## GÜNEL BALAYEVA:

**"DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi sayəsində həyatımda ilk dəfə xarici ölkəyə səfər etdim. Həmçinin respublika üzrə sərgilərdə iştirak edirəm. Təsəvvür edin, 30 yaşına kimi evdən çıxmayan qız indi ölkə xaricində və daxilində əl işlərini nümayiş etdirir. Bir protez həyatımı belə dəyişdi".**

## "MƏHDUDİYYƏT AYAQDA, ƏLDƏ YOX, İNSANIN BEYNİNDƏ OLUR"

Günel ilk dəfə heç kimin köməyi olmadan sözügedən mərkəzə yollanır: "Buraya gəldikdən sonra anladım ki, utanmalı heç nə yox imiş. Heç cəmiyyət də məni təsəvvür etdiyim kimi pis qarşılamadı. Orada başa düşdüm ki, məhdudiyyət ayaqda, əldə yox, insanın beynində olur. Kaş uşaqlıqdan özümə qapanmaz, peşə öyrənərdim. Amma mən həyatımda dönüşü 30 yaşımda etdim. Buradan sonra gəlinlik dükanında işləməyə başladım".

O, həyat yoldaşı ilə də elə gəlinlik dükanında işləyərkən tanış olub: "Həyat yoldaşım bizim dükanın yanındakı ofisdə işləyirdi. İş yoldaşlarım məndən xəbərsiz şəkillərimi göndərib, hətta görüş vaxtını da təyin etmişdilər. Mənə məlumat verdiklərində etirazımı bildirdim. Həyatımda ilk dəfə idi ki, tanımadığım insanla görüşəcəkdim. Mən heç vaxt ailə qurmaq istəməmişəm, ümumiyyətlə, ailə qurmaqla bağlı arzularım belə olmayıb. Çünki bacarmayacağımı düşünürdüm. Düşünürdüm ki, həyat yoldaşım mənə məhdudiyyətimlə bağlı söz desə, böyük zərbə alaram".

## "ANLADIM Kİ, SEVGİ ƏNGƏL TANIMIR..."

Güneli ən çox qorxudan isə ona elçi düşən indiki həyat yoldaşının fiziki məhdudiyyətinin olmaması idi: "Özüm kimi olsa idi, bəlkə bu qədər qorxmazdım. Amma fiziki məhdudiyyəti olmayan insanla ailə qurmaq mənim üçün mümkünsüz idi. Görüşdüm, yenə qorxularım mənə qalib gəldi, razılaşmadım. Daha sonra ad günümdə mənə sürpriz etdi və inandırdı".

"Səni necə inandırdı, qorxularına necə qalib gəldi" sualına isə Günel belə cavab verir: "Ona hər dəfə "mən beləyəm" ifadəsini işlədirdim. Həyat yoldaşım isə mənə "mən beləyəm"in altında nə olduğunu soruşurdu. Deyirdi ki, o qədər insan var ki, sənin gözündə sağlamdır, amma düşüncələri, təfəkkürü xəstədir. Mən onunla hər şeyi açıq danışdım. Ən böyük narahatçılığım protezimi çıxaranda pis olması, məndən utanması idi. O mənə izah etdi ki, bu hadisə mənim də başıma gələr, ayağım kəsilə bilər. Hətta mənə dedi ki, "bu səni narahat edirsə, mən də ayağımı kəsim, bərabər olaq". Bu sözdən sonra ona güvəndim. Yaxşı ki də güvəndim. O zaman anladım ki, sevgi əngəl tanımır. Ona inandım və razılaşdım, indi beş yaşında qızımız var".

*"Fiziki məhdudiyyəti olmayan insanla ailə qurmaq mənim üçün mümkünsüz idi. Görüşdüm, yenə qorxularım mənə qalib gəldi, razılaşmadım. Daha sonra ad günümdə mənə sürpriz etdi və inandırdı."*



Fotolar: Rüfət Mikayılov / Global Media Group





Amma həyat yoldaşının fiziki məhdudiyyətinin olmaması, Güneli sevməsi onun ailəsini də narahat edib: "Yoldaşımın ailəsi yaxşı qarşılaşdı. Amma dayılarım razı deyildi. Narahat idilər ki, məni aldadarlar. Çünki onlar da məhdudiyyətimin olduğu halda sağlam birinin məni həqiqətən sevə biləcəyinə inanmırdılar. Atam rəhmətə getdiyi üçün mənə dayılarım atalıq edirdi. Dayıma "sən mənim böyüyümsən, necə istəyirsən, elə olsun" demişdim. Sonra dayım da yoldaşımla görüşüb, ona inanmışdı. Dayım "xoşbəxt ol, qızım" dedi, indi şükürlər olsun ki, xoşbəxtəm".

## "DAXİLİMDƏ XOŞBƏXT OLMAMAQ QORXUSU VAR İDİ"

Günel hətta gəlinliyini də özü tikib: "Ailə quran ərəfədə dərzi sexində işləyirdim. Düşündüm ki, gəlinlik libasımı özüm tikə bilərəm. Hər kəsə dəbli gəlinlik tikirdim, özümə tam sadə etdim. Çox gözəl də alınmışdı".

Sadə tikməsinin altında yatan hiss xoşbəxt olmamaq qorxusu olub: "Özümlə bağlı gəlinlik ideyam yox idi. Çünki o ana qədər toyumun olacağını düşünmürdüm. Düzdür, arzum var idi ki, gəlinlik dükanı açım, hamını geyindirim. Amma öz toyumu heç vaxt düşünməmişdim. Daxilimdə xoşbəxt olmamaq qorxusu var idi. Ona görə də sadə geyimi seçdim. Əslində, bu yola çıxanda hər şeyə hazır idim. Alınmasa idi də pis olmayacaqdım. Çünki həyatda mübarizəyə öyrənmişdim və heç nədən qorxmurdum. Amma düşündüyüm kimi olmadı. Həyat yoldaşım mənə çox dəstək oldu. Mənə deyirdi ki, birdən iş görərkən nəyisə etməyi bacarmasan günahı ayağının olmamasında görmə. Hamımız nələrisə bacarmaya bilərik, bu, tək sənə məxsus deyil. Onun fikirləri məni həyata bağladı".

## "UŞAQ NİYƏ ANASININ ƏLİNİN, QOLUNUN OLMAMASINDAN UTANMALIDIR Kİ..."

Günelin ailə qurmaq planının olmaması da ətrafında səsləndirilən fikirlərə görə olub: "Kənardan həmişə mənə deyirdilər ki, ailə qurma. Hətta indi də "fiziki məhdudiyyətli olanlara uşaq lazım deyil" fikirləri ilə rastlaşıram. Bu fikirlərə inansaq, sabah uşaqlarımız bizdən utanacaq. Belə düşüncələr o qədər şüurumuza yeridilib ki, məhdudiyyətli insanların əksəriyyəti ailə qurmağı özünə yaraşdırmır, özünü ailə qurmaq, valideyn olmaq arzusundan kənarlaşdırır. Əsasən də qadınlar. Uşaq niyə anasının əlinin, qolunun olmamasından utanmalıdır ki... Mənim çətinliyim olmadı. Qızımı da hamı kimi böyüdürəm və məndən utanmır. Bəzən protezimi gətirir ki, ana, dur geyinək. Mənə kömək etməyə çalışır".

Günel özü kimi düşünən həmcinslərinə də səslənir: "İstər məhdudiyyətli, istər məhdudiyyətsiz, insanın qarşısına onu anlayan insan çıxdıqda, hər şey qaydasında gedir. Əgər mənim kimi özlərini evə qapadan xanımlar varsa, elə indi həyatlarını dəyişsinlər. Bizim üçün dövlət tərəfindən kifayət qədər şərait yaradılıb. Həyata, cəmiyyətə addım atmalıyıq ki, onlar da bizə qucaq açsınlar. Düzdür, pis insanlar da var, amma yaxşılar daha çoxdur".

## "BİR PROTEZ HƏYATIMI BELƏ DƏYİŞDİ"

Günel hazırda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində xalça, eskiz və vitraj istiqamətində təlimlərə qoşulub: "Bu mərkəz məni daha da inkişaf etdirdi. Həmçinin dərzilik fəaliyyətimi də inkişaf etdirirəm. Burada özümü daha da sərbəst ifadə edə bilirəm. Hamımız sənət öyrənirik. Ən böyük uğurlarımdan biri ötən il "Dubay Ekspo 2020" dünya sərgisində Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə yaradılan milli pavilyonda ölkəmi, eyni zamanda mərkəzimizi təmsil etməyim idi. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi sayəsində həyatımda ilk dəfə xarici ölkəyə səfər etdim. Həmçinin respublika üzrə sərgilərdə iştirak edirəm. Təsəvvür edin, 30 yaşına kimi evdən çıxmayan qız indi ölkə xaricində və daxilində əl işlərini nümayiş etdirir. Bir protez həyatımı belə dəyişdi".






## Bakcell-in sponsorluğu ilə “İnnovasiya Sammit”i keçirilib

**Ölkənin ən böyük özəl operatoru olan Bakcell “InMerge İnnovasiya Sammiti”nin “Sürət və Telekom partnyoru” olaraq bir daha innovasiyalara öz dəstəyini göstərib.**

**30 noyabr - 1 dekabr 2023-cü il tarixlərini əhatə edən regionun ən böyük sammiti Bakı Konqres Mərkəzində “PAŞA Holdinq”in təşkilatçılığı, Bakcell şirkətinin aparıcı sponsorluğu ilə reallaşıb. İnnovasiya və yüksək texnoloji yeniliklərə sarsılmaz dəstəyi ilə tanınan Bakcell artıq 3-cü ildir ki, innovasiya tədbirlərinə sponsor olaraq öz dinamik rolunu qoruyur.**

**Sammitin məqsədi texnologiya sahəsində aparıcı liderləri, şirkətləri, eləcə də innovasiya yönümlü startapları bir araya toplamaq, regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərməkdir. Tədbirin ilk günü telekommunikasiya vertikalında Bakcell-in Baş icraçı direktoru Klaus Müller öz bilik və təcrübəsini auditoriya ilə bölüşüb, iştirakçılarla faydalı fikir mübadiləsi aparıb.**

**“Telekommunikasiya sektorunda daim innovativ həllərlə fərqlənən bir şirkət kimi bu tədbirin “Sürət və Telekom partnyoru” olmaqdan qürur duyuruq. Ötən müddət ərzində ən müasir səs texnologiyası olan VoLTE-ni, yenilənmiş Bakcell tətbiqini abunəçilərin ixtiyarına verərək, telekommunikasiya sektorunda ciddi addımlar atmışıq. Uğurlarımızın nəticəsi olaraq 2023-cü ildə Ookla® şirkəti tərəfindən “Speedtest” mükafatına layiq görülərək “Azərbaycanın ən sürətli operatoru” adını almağa layiq görülmüşük. Bakcell olaraq qarşıdakı dövrdə ən qabaqcıl texnologiyaların ölkəyə gətirilməsində genişmiqyaslı fəaliyyətimizi daha da gücləndirəcəyik.” - deyə Klaus Müller bildirib.**

**Ölkənin dörd bir yanında “Ölkənin ən sürətlisi” şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti “NEQSOL Holding”in tərkibinə daxildir.**

# TÜRKMƏNİSTANDA SOCAR-ın ofisi açılıb

Azərbaycanla Türkmənistan arasında imzalanmış 100-dən çox sənəd münasibətlərin hüquqi bazasını formalaşdırır. “Heydər Əliyev İli” çərçivəsində SOCAR-ın xaricdə ikinci nümayəndəliyinin məhz bu ölkədə açılması xüsusi əhəmiyyət daşıyır.




“Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Aşqabadda nümayəndəliyinin açılması Türkmənistanla uzunmüddətli fəaliyyətin möhkəmləndirilməsinə, ölkələrin enerji sektorunda ortaq maraqlarının reallaşmasına inamın təzahürüdür”.

“Report” SOCAR-a istinadən xəbər verir ki, bunu SOCAR-ın Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov Aşqabadda Azərbaycan Dövlət Neft Şirkətinin Türkmənistandakı nümayəndəliyinin açılışı mərasimində çıxışı zamanı bildirib.

M.Cabbarov iki ölkə arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun xüsusi rolunu vurğulayıb.

**SOCAR-IN XARİCDƏ İKİNCİ NÜMAYƏNDƏLİYİ**

2023-cü ilin Azərbaycan xalqı üçün əlamətdar olduğunu qeyd edən nazir “Heydər Əliyev İli” çərçivəsində SOCAR-ın xaricdə ikinci nümayəndəliyinin açılmasının xüsusi əhəmiyyət daşıdığını ifadə edib. M.Cabbarov iki ölkə arasında imzalanmış 100-dən çox dövlətlərarası və hökumətlərarası sənədin münasibətlərin hüquqi bazasını formalaşdırdığını diqqətə çatdırıb. Nazir açılışda əməyi keçən hər kəsə təşəkkür edərək nümayəndəliyə fəaliyyətində uğurlar arzulayıb.



**ENERJİ SEKTORUNDA ƏMƏKDAŞLIQ**

Türkmənistan Prezidentinin neft-qaz məsələləri üzrə müşaviri Aşırqulu Beqliyev tədbirdə çıxış edərək nümayəndəliyin açılışı münasibətilə təbriklərini çatdırıb. A.Beqliyev nümayəndəliyin ölkələr arasında enerji sektorunda əməkdaşlığın daha da genişləndirilməsinə dəyərli töhfə verəcəyinə əminliyini ifadə edib.

SOCAR-ın prezidenti Rövşən Nəcəf Türkmənistanda SOCAR-ın nümayəndəliyinin fəaliyyətə başlamasının əlamətdar hadisə olduğunu diqqətə çatdırıb. SOCAR və Türkmənistanın enerji şirkətləri arasında mövcud əməkdaşlıqdan bəhs edən R.Nəcəf yeni nümayəndəliyin açılışının əhəmiyyətini vurğulayıb.

Tədbir iştirakçıları ofisdə yaradılan şəraitlə tanış olublar.

# Türkiyəyə növbəti yardım göndərilib

Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Diasporuna Dəstək Fondu havaların soyuması ilə əlaqədar bu ilin fevralında Türkiyə Respublikasında baş vermiş zəlzələdən zərər çəkmiş şəxslərə dəstək məqsədilə Kahramanmaraş bölgəsinə quru yolu ilə humanitar yardım göndərib. Bu barədə “Report”a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, içərisində 6200 yorğan və adyal, 175 kondisioner, 1500 ədəd isidici, eyni zamanda, yemək bişirmək üçün 1000 soba olan iki TIR Kahramanmaraş rayon Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyinin (AFAD) Regional Mərkəzinə yola salınıb.

Mərasimdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev bildirib ki, 6 fevral 2023-cü ildə Türkiyədə baş verən dəhşətli zəlzələnin ilk saatlarından Azərbaycan dövləti və xalqı qardaş Türkiyənin yanında olub: “Prezident İlham Əliyevin göstərişi ilə dərhal zəlzələ bölgəsinə Azərbaycandan xilasedicilər və humanitar yardım karvanları göndərilib. İstər Azərbaycanda, istərsə də xaricdə yaşayan azərbaycanlılar türkiyəli qardaşlarına yardım etmək üçün səfərbər olublar. Havaların soyuması ilə əlaqədar zəlzələdən içərilərində azərbaycanlıların da olduğu zərərçəkmiş şəxslərə dəstək məqsədilə bu gün göndərilən yardım da həmin prosesin tərkib hissəsidir”.




Xatırladaq ki, Azərbaycan hökumətinin dəstəyi ilə ADDF cari ilin aprel ayında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası ilə birlikdə Kahramanmaraşda zəlzələdən zərər çəkmiş 2600-dən çox ailəyə ərzaq yardımı, avqust ayında isə yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq Hatay və ətraf bölgələrdə 1-ci sinfə gedəcək şagirdlərə dəstək üçün 3000 məktəbli dəstindən ibarət humanitar yardım göndərib.

# VERGİLƏR AZALDILDI, BƏS QİYMƏTLƏR?

**Azərbaycanın regionlarında hotel və sanatoriyaların əmlak vergisi üç il müddətinə 75 faiz azaldılır. Ekspertlər deyirlər ki, yeni güzəştlər bölgələrdə hotellərin qiymətinin azalmasına gətirib çıxarmalıdır.**







ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az


Gələn ildən Azərbaycanın regionlarında hotel və sanatoriyaların əmlak vergisi üç il müddətinə 75 faiz azaldılacaq. Bu, Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb. Yeni qərarda söhbət Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında hotel və sanatoriya kimi fəaliyyət göstərən yerləşmə vasitəsi olan daşınmaz əmlaklardan gedir. Yeni güzəştlər bölgələrdə otellərin qiymətinə necə təsir edəcək, azalma olacaqmı?

**“REGİON HOTELLƏRİNİN QİYMƏTLƏRİNDƏ FƏRQİ GÖRƏ BİLƏCƏYİK”**

Azərbaycan Turizm Agentlikləri Assosiasiyası sədrinin müavini Əhməd Qurbanov “Kaspi” qəzetinə açıqlamasında dedi ki, tətbiq edilən güzəştlər hotellərin xərclərindən çıxıldığı üçün bu dəyişiklik qiymətlərdə öz əksini tapacaq: “Gələn ildən Vergi Məcəlləsinə uyğun olaraq yerləşmə müəssisələri kimi fəaliyyət göstərən daşınmaz əmlaklara üç il müddətində 75 faiz əmlak vergisindən azad edilmə qüvvəyə minəcək. Bu tip təşviqlər sahibkarlar üçün çox önəmlidir. Belə olduğu halda turistlərin bu hotellərdə qalması üçün münbit şərait yaradılır. Amma bütün dünyada turistlər bəzən qiymətlərdən şikayət edirlər. Bunun da səbəbi hotellərin müəyyən xərclərə malik olmasıdır. Belə təşviqlər olanda hotellər mümkün qədər qiymətlərini endirirlər. Hotellər xərc hesablamalarını apararkən əmlak vergisini oraya daxil etməyəcəklər. Bu da turistlərə sərfəli qiymətlərlə istirahət etmək imkanı yaradacaq. Düşünürəm ki, bu güzəştlərdən sonra region hotellərinin qiymətlərindəki fərqi görə biləcəyik, az bir faizlə olsa da, ucuzlaşmanın şahidi olacağıq. Təbii ki, mövsüm vaxtı bazar iqtisadiyyatının şərtləri, tələb və təklifdən asılı olaraq qiymətlərin artımını hər il müşahidə edirik. Gələn il də bayram vaxtı, özəl günlərdə bunun olması qaçılmazdır. Amma güzəştlər ümumilikdə müəyyən qədər hotellərin qiymətlərinə öz müsbət təsirini göstərəcək”.

## SAHİBKARA DƏSTƏK DAVAM ETDİRİLMƏLİDİR



Əhməd Qurbanov

Ə.Qurbanovun sözlərinə görə, hotellərin və istirahət mərkəzlərinin sayının artırılması üçün təşviq mexanizmi olmalıdır: “Turizmin inkişafı üçün bu tip təşviqlər vacibdir. Dünya təcrübəsində də dövlət tərəfindən torpaq sahələrinin verilməsi və orada hotellərin tikilməsinin təşviq edilməsi vacib amillərdəndir. Sahibkara dəstək olarsa, hotellərin sayı həm regionlarda, həm də paytaxtda daha da artar. Bu da rəqabət siyasəti ilə qiymətlərin daha da aşağı enməsinə, keyfiyyətli xidmətin göstərilməsinə şərait yaradar. Çünki nə qədər çox rəqabətli mühit olarsa, həm inkişaf olur, həm də qiymətlərdə tənzimlənmə daha effektiv müşahidə edilir”.

## QƏRAR DAHA ÇOX İRİ MÜƏSSİSƏLƏRİN XEYRİNƏ OLACAQ

Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri Samir Dübəndinin fikrincə, bu güzəştlər daha çox iri müəssisələrin xeyrinə olacaq: “Bu, regionların inkişafına doğru yönəlmiş bir addımdır. Vergi güzəştləri daha çox dəyəri yüksək və daşınmaz əmlakı böyük olan müəssisələr üçün faydalı olacaq. Qərarda qeyd edilir ki, mehmanxana və sanatoriya-kurort müəssisələrinə şamil olur. Qanunvericiliyə əsasən də, hotel azı 11 otağı olan yerləşdirmə vasitəsi adlanır. Sanatoriya-kurortların isə əksəriyyəti iri müəssisələrdir. Bu qərar qiymətlərin azalmasına gətirib çıxara və yaxud müəssisə tərəfindən vəsaitlərin inkişafa, personalın təkmilləşməsinə, xidmətlərin keyfiyyətinin yüksəlməsinə və yeni müştəri bazasının əldə edilməsinə yönəldilə bilər. Düşünürəm ki, bu cür vergi güzəştləri davamlı xarakter daşısa, daha yaxşı olar”.

**“TURİZM BİZNESİ ÜÇÜN İXTİSASLAŞMIŞ KREDİTLƏR VERİLMƏLİDİR”**

S.Dübəndi qeyd etdi ki, regionlarda hotelçiliyin inkişafına dəstək olmaq üçün müəyyən addımlar atıla bilər: “KOB-lar biznesin inkişafı istiqamətində ölkədə bir sıra faydalı proqramlar həyata keçirirlər. Buna baxmayaraq, kiçik hotelçiliyin, turizm biznesinin inkişafı üçün ixtisaslaşmış kreditlər tətbiq edilmir. İnkişaf üçün biznesin kreditləşməsi zəruridir. Digər tərəfdən, bir sıra sosial-iqtisadi alətlərdən istifadə edərək regional turizmi canlandırmaq perspektivlərini unutmamalıyıq. Misal üçün, yerləşdirmə vasitələrində təklif edilən üç gecəlik paketin bir gecəsini dövlət subsidiyası ilə ödəyərək regional səfərləri stimullaşdırmaq mümkündür. Ölkədə Həmkarlar İttifaqı sistemində bu və yaxud digər sahələrdə çalışan insanların asudə vaxtının, istirahətinin və müalicəsinin təşkilinin təmin edilməsi məqsədilə yalnız adı gedən qurumun tabeliyində olan yerləşdirmə, sanatoriya-kurort müəssisələrilə çalışdıqlarını görürük. Bu sistemi digər regional yerləşdirmə vasitələri üçün də tətbiq edib, sistemi genişləndirmək mümkündür”.



Samir Dübəndi

# ALİMENTDƏ CİNS AYRI-SEÇKİLİYİ YOXDUR

Bizim cəmiyyətdə belə bir fikir var ki, alimenti kişi ödəməlidir. Yəni ata boşandıqdan sonra qadından ayrı yaşasa belə, övladının maddi rifahını təmin etməlidir. Qanunvericilik isə belə demir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Ər-arvad boşandıqdan sonra uşaq, demək olar ki, ənənəvi olaraq, anası ilə birlikdə yaşamağa davam edir. Qanunvericiliyə görə, ər və arvad boşandıqdan sonra da yetkinlik yaşına çatmayan uşaqlarına maddi dəstək verməyə borcludur. Bu cür dəstəkdən imtina edilərsə, ərdən və ya arvaddan aliment ödəməsi tələb oluna bilər.

Bizim cəmiyyətdə belə bir fikir var ki, alimenti kişi ödəməlidir. Yəni ata boşandıqdan sonra qadından ayrı yaşasa belə, övladının maddi rifahını təmin etməlidir. Lakin gender bərabərliyi prinsiplərini nəzərə alsaq, qadınların gəlirindən aliment tutulması nəinki məntiqli sayılır, hətta bu hal qanunvericiliklə tənzimlənir. Ekspertlər kişilərin də maddi dəstək hüququnun olduğunu bildirirlər. Ancaq kişilər çox vaxt aliment tələb etmirlər. Onların aliment istəməsinə bəzən qürurları mane olur.

**BEYNƏLXALQ TƏCRÜBƏ DƏ BƏRABƏRLİYİ ƏSAS TUTUR**

Xarici ölkələrin təcrübəsinə nəzər salsaq, Rusiya Federasiyasının Ailə Məcəlləsində kişilərin aliment almaq hüquqi tanınır. Qonşu ölkənin Ailə Məcəlləsinə görə, ana ilə bərabər ata da aliment almaqla bağlı iddia qaldıra bilər.

ABŞ-nin Kaliforniya ştatında da əgər boşanma zamanı həyat yoldaşlarından biri digərindən qat-qat çox qazanırsa, digər həyat yoldaşı ondan aliment tələb edə bilər. Və ya əgər həyat yoldaşlarından biri uşaqlarına və ya evə qulluq etmək üçün işindən imtina edərsə, evdə qalan həyat yoldaşı boşanma halında aliment tələb etmək hüququna malikdir. Xarici ölkələrin təcrübəsindəki bu hallar bizim Ailə Məcəlləmizdə də yer alıb.

Təəssüf ki, Azərbaycanda məhkəmə qərarından sonra nə qədər uşağın ana, nə qədər uşağın ata öhdəliyində qalması ilə bağlı statistikanı nə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən, nə də Ədliyyə Nazirliyindən əldə edə bildik.

**BU MƏSƏLƏNİN CİDDİ İCTİMAİ MÜZAKİRƏSİ KEÇİRİLMƏLİDİR**

Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafanın fikrincə, bu məsələdə məhkəmənin qərarı çox önəmlidir. Çünki situasiyaya görə qərar verilməlidir: "Elə hallar var ki, alimentin qadın, istisna hallarda kişi üçün də ödənməsi nəzərdə tutula bilər. Çünki uşağı kimin himayə etməsi və saxlaması, bunun hansı çətin şərtlərdə gerçəkləşməsi problemi var". Millət vəkili hesab edir ki, bu sahədə məhkəmənin müstəqil qərarvermə mexanizmini inkişaf etdirmək lazımdır: "Bu mexanizm inkişaf edərsə, problem də qalmaz. Hər halda, bu məsələnin ciddi şəkildə ictimai müzakirədən keçməyinin tərəfdarıyam. Biz Aliment Fondunun yaradılması məsələsini də həll edə bilmədik. Bu fond olsaydı, dövlətin bu cür uşaqlara qayğısını daha çevik şəkildə gerçəkləşdirmək mümkün ola bilərdi. Ümumiyyətlə, bu sahədə bir çox problem var. Biz onların həlli istiqamətində düşünməliyik".

## ƏGƏR UŞAQ ATANIN YANINDA QALIRSA...

Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Ruslan Vəliyev məsələ ilə bağlı qanunvericilikdə ayrı-seçkiliyin olmadığını bildirir: "Ailə Məcəlləsində konkret olaraq hansı valideynə aliment ödənilməsi göstərilməyib. Məcəllədə "Uşağı saxlayan valideyn digər valideyndən aliment ala bilər" və ya "Uşaqdan ayrı yaşayan valideyn onun saxlanması üçün aliment ödəməlidir", - deyə qeyd edilib: "Yəni uşaqla yaşamayan valideyn uşaqla yaşayan valideynə aliment ödəməlidir. Təcrübədə də kifayət qədər işlər olur ki, məhkəmə qaydasında anadan aliment tutulur. Bu, Azərbaycanda geniş yayılmasa da, normal haldır. Mənim icraatımda olan 3-4 işdə konkret olaraq ataya verilməsi üçün anadan aliment almışıq". Vəkil bildirir ki, uşaqların daha çox ana nəvazişinə ehtiyacı olduğu üçün məhkəmələrdə adətən onların analarının yanında qalması ilə bağlı qərarlar qəbul edilir: "Qanunvericilik daha çox uşaqların analarının yanında qalmasını təşviq edir. Amma müəyyən səbəblərdən məhkəmələr uşağın atanın yanında qalması ilə bağlı da qərar çıxarırlar. Həmçinin, uşağın özünün kimin yanında qalmaq istəməsi də məhkəmənin qərarına təsir edir. Yeddi yaşına qədər olan uşaqlar əksər hallarda ananın öhdəsinə verilir və ata aliment ödəməli olur. Ona görə də cəmiyyətdə daha çox atanın aliment verməsi fikirləri hallanır. Tək-tük hallarda atanın yanında qalan uşaq üçün ana tərəfindən aliment ödənilir. Səhv olaraq insanlarda belə fikir formalaşır ki, yalnız ata aliment ödəməlidir. Ancaq əgər uşaq atanın yanında qalırsa, onda ana aliment ödəməlidir". Vəkil "Aliment daha çox anaya verilir" fikirlərinin geniş yayılmasına da aydınlıq gətirdi: "Məhkəmə qaydasında uşaqların ataya verilməsi uzun bir prosedurdur. Qanun daha çox ananın tərəfində olduğu üçün əksər hallarda anaları qoruyur. Bizim kişilərimiz bəzi hallarda "özüm uşağın ehtiyaclarını qarşılayacam" deyə aliment tələb eləmirlər. Bu, mentalitetə uyğun addımdır. Onlar daha çox gəlirə malik olduqlarını düşünüb qadını öhdəlikdən azad edirlər".

## "QADINDAN NİYƏ ALİMENT ALIRLAR?"



Fazil Mustafa

Foto: Rüfət Mikayılov/Global Media Group

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova da ailə qanunvericiliyində ataya da alimentin verilməsinin mümkünlüyünün yer aldığını qeyd etdi: "Ana işləməyəndə, uşağa baxmaq öhdəliyi, məsuliyyəti, yaşayış yeri olmayanda məhkəmə uşağın mənafeyinə uyğun qərar çıxarır və bəzi hallarda onu ataya verir. Əgər ata uşağa baxırsa, qadından aliment alınması tələbi irəli sürür. Əslində, kişilər bəzi hallarda bunu qadını asılı vəziyyətə salmaqdan ötrü edirlər. Qadınlar işləməyəndə borc yığılır və məhkəmə qarşısında cavab verməli olurlar. Belə müzakirələr olanda cəmiyyət də "niyə qadından aliment alırlar?" - deyə kişiləri qınayır".



Mehriban Zeynalova



Ruslan Vəliyev

# “İNDİ HƏR ADAMIN 2-3 KARTI VAR”




**Kart məlumatlarını heç kimə verməyin, gələn sms-lərdəki linklərə daxil olmayın, hər zəng edən şəxsə aldanmayın. Tanımadığınız saytlarda kartınızdan ödəniş vasitəsi kimi istifadə etməyin. Sosial şəbəkələrdə qarşınıza çıxan vədlərə, kampaniyalara inanmayın.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan Mərkəzi Bankı xəbər verir ki, ödəniş kartlarının sayı cari ilin oktyabr ayının 1-i ilə müqayisədə 271 min ədəd artaraq 16 milyon 210 min ədəd olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 20.9 faiz artıb. İnsanların nağdsız ödənişlərə meyl etməsi təqdirəlayiqdir. Təbii ki, kartların bu qədər artmasının müsbət və mənfi tərəfləri də var.

### MALİYYƏ SAVADLILIĞI ARTDIQCA...

Maliyyə üzrə ekspert Elnur Quliyev dedi ki, kartların sayının artması prosesi yaxın gələcəkdə də davam edəcək: “Milli ödəniş sistemlərinin təkmilləşdirilməsi, bankların “mobil bankçılıq” xidmətlərini inkişaf etdirməsi plastik kartlardan istifadəni daha da sürətləndirib. Həmçinin dövlət nağdsız hesablaşmaların artmasında maraqlıdır və bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçirir. Maliyyə savadlılığı artdıqca insanlar nağdsız ödənişlərin üstünlüklərini, plastik kartlarla ödəmənin asanlığını, əlverişli olduğunu başa düşürlər”.

### KARTLAR İNSANLARA MÜƏYYƏN XEYİRLƏR VERİR

E.Quliyevin fikrincə, ölkəmizdə plastik kartlardan istifadənin artmasına təsir edən əsas faktorlar - son üç il ərzində mal və xidmətlər üzrə plastik kartla ödəniş qəbul edən məntəqələrin sayının əhəmiyyətli artması, “ƏDV geri al” mexanizminin, həmçinin banklar tərəfindən “cashback” proqramlarının tətbiqi, plastik kartları ödənişsiz təqdim etmələri, elektron ticarət dövriyyəsinin çoxalmasıdır: “Elektron ticarətin artması, xüsusilə pandemiya dövründə nağd puldan istifadə sahələrinin məhdudlaşdırılması istehlakçıları bank kartlarına sövq edib. İnsanlar ödədikləri pulun ƏDV vasitəsilə cüzi miqdarda da olsa geri qaytarılması üçün satıcıları plastik kartla satış etməyə məcbur edirlər. Nəticə etibarilə, dövlət istehlakçılar vasitəsilə satıcıları nəzarətdə saxlayır. Plastik kartlardan istifadənin əsas üstünlüklərindən biri də kartla ödəniş zamanı xərclənən vəsaitləri izləməyin və nəzarət etməyin asan olmasıdır. İnsanlar şəxsi və ailə büdcələrinin idarə olunmasında bundan istifadə edirlər”.

### DAHA ETİBARLIDIR

Ekspert bildirdi ki, şəxsi vəsaitləri kart hesabında mühafizə etmək oğurluq və itirilmə ehtimalını minimallaşdırır: “Nağd pul itdikdə və ya oğurlandıqda onu geri qaytarmaq mümkün deyil. Lakin plastik kart itərsə, mobil bank vasitəsilə kartı bloklaya bilirsiniz. Kartı oğurlayan və ya əldə edən şəxs pul çıxara bilmir. Sizdən xəbərsiz hər hansı ödəniş edilsə belə, banklar ödəniş tarixçəsi ilə xərclənmə istiqamətini müəyyən edə bilir”.

### MALİYYƏ İNTİZAMI GÜCLƏNİR

E.Quliyevin sözlərinə görə, kartlar insanlardan əlavə dövlətimiz üçün də faydalıdır: “Plastik kartlarla ödənişlər “kölgə iqtisadiyyatı” ilə mübarizə baxımından da müsbət effekt verir. Pul vəsaitləri nağdsız hərəkət edən ölkələrdə iqtisadi artım sürətlənir, insanlara vaxta qənaət imkanı yaradır, ticarət və xidmət obyektlərində saxta pulların qarşısı alınır. Eyni zamanda, kartla ödənişlər vətəndaşların dövlət qurumlarına ödədiyi xidmət haqlarının hesabatlılığını təmin edir, şəffaflığa zəmanət verir. Plastik kartlarla ödənişlər sayəsində vergidən yayınmanın qarşısı alınır, büdcəyə daha çox vəsait toplanır, ölkə iqtisadiyyatında maliyyə intizamı güclənir. Nağdsız hesablaşmaların artması dövlət gəlirlərinin artmasını şərtləndirir ki, bu da sosial sektorun maliyyələşdirilməsi üçün əlavə imkanlar yaranır”.



Elnur Quliyev

## İNSANLAR QƏRAR VERMƏKDƏ ÇƏTİNLİK ÇƏKİRLƏR

Bank məsələləri üzrə mütəxəssis Emin Mahmudov isə deyir ki, kartların bu qədər sürətlə artmasının səbəbi bankların təklif etdiyi cəzbedici imkanlardır: “10 milyon əhalidən uşaqları və yaşlıları çıxsaq, təxminən 7-8 milyon insanın iki kartı olduğu anlamına gəlir. Hətta bəzi şəxslərin 3-5 kartı var. Bank kartlarının artmasının səbəbi bankların bir-biri ilə rəqabətə girərək, kart istifadəçiləri üçün fərqli şərtlər təqdim etməsidir. İnsanlar bir kartı alıb razı qalır, müəyyən vaxt istifadə edir və görür ki, digər bankın kartı daha yaxşı şərtlər verir. Bu halda vətəndaş digər kartdan da alır. İnsanlar hansı kartı istifadə edəcəklərinə qərar verə bilmirlər. Müəyyən sferalar üzrə bir bankın kartı daha uyğundur, digər sahə üzrə başqa kart daha əlverişlidir. Ona görə də hərənin 2-3 kartı olur”.

### KARTLARIN YARISI AKTİV DEYİL

Mütəxəssis bildirdi ki, əhalinin həddən artıq kartdan istifadəyə yönəlməsinin mənfi cəhətləri əsasən banklar üçündür: “Hər nə qədər kart sayı artsa da, onlardan aktiv şəkildə istifadə olunanı azdır. Banklarda aktiv kart sayı təxminən 50 faizdir. Bir şəxs 3-4 kart alırsa, onları müəyyən dövrdən bir - hansısa kampaniyalar, sərfəli şərtlər olduqda, xaricə gedərkən və s. istifadə edir. Amma aktiv şəkildə istifadə edilən kartlar adətən bir və ya iki ədəd olur. Qeyri-aktiv kartlar bank üçün əlavə xərc kimi qalır”.



Emin Mahmudov

## BU SAHƏDƏ DƏLƏDUZLUQ HƏR GÜN İNKİŞAF EDİR

E.Mahmudov söylədi ki, kartın sahibi üçün mənfi tərəfi yoxdur, sadəcə, bəzi riskləri var: “İnsanın kartı nə qədər çox olarsa, o kartları izləmək, onların təhlükəsizliyini təmin etmək o qədər çətinləşir. Amma əslində sadə qaydalardır. Kart məlumatlarını heç kimə verməyin, gələn sms-lərdəki linklərə daxil olmayın, hər zəng edən şəxsə aldanmayın. Tanımadığınız saytlarda kartınızdan ödəniş vasitəsi kimi istifadə etməyin. Sosial şəbəkələrdə qarşınıza çıxan vədlərə, kampaniyalara inanmayın. Ancaq rəsmi səhifələri, saytları izləyin. Amma hər nə qədər banklar, təhlükəsizlik orqanları, güc strukturları insanları maarifləndirməyə çalışsa da, yenə də görürük ki, aldananlar var. Kartlardan oğurluq halları hər gün inkişaf edir, yeni yollar tapıb insanları aldatmağa cəhd edirlər. Buna görə də hər zaman kart sahiblərindən xahiş edirik ki, təhlükəsizlik qaydalarını nəzərə alsınlar”.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 3166
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

DURU YAĞ İSTEHSALINDA İDXALDAN ASILI ÖLKƏYİK

# BİTKİ YAĞLARINI UCUZLAŞDIRAN SƏBƏBLƏR



Günəbaxan, qarğıdalı yağlarını dünya bazarına Ukrayna daha çox ixrac edir. Bu səbəbdən müharibənin ilkin dövründə qiymətlər xeyli bahalaşdı. 2022-ci ilin iyul ayından taxıl dəhlizinin işə düşməsi, Ukraynanın quru sərhədləri vasitəsi ilə ixracı bərpa etməsi nəticəsində qiymətlər azaldı.






İLHAMƏ ƏBÜLFƏT

Yerli və xarici bitki yağlarının qiyməti azalıb. Alıcılar deyirlər ki, son aylar qiymətlər təxminən 15-20 faiz enib. Qeyd edək ki, ölkəmizdə bu istiqamət üzrə illik tələbat 85 min tondur. Onun 46 min tona yaxını idxal olunur. Dövlət Statistika Komitəsinin hesabatına görə, bu ilin oktyabr ayında əvvəlki aya nisbətən günəbaxan və qarğıdalı yağlarının, manna və qarabaşaq yarmasının, çörəyin, süfrə marqarininin qiymətlərində azalma müşahidə olunub. 2023-cü ilin yanvar ayında idxal günəbaxan yağının bir litrinin orta aylıq pərakəndə satış qiyməti 6,28 manat idisə, iyun ayında bu rəqəm 5,92 manat olub. Bəs görəsən, ucuzlaşma əsaslıdırmı və tendensiya davam edəcəkmi?

### QARĞIDALI YAĞININ XAMMALI İDXALDIR

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə “Kaspi” qəzetinə açıqlamasında bildirib ki, hazırda Azərbaycanın günəbaxan yağı üçün xammal təminatının təxminən iki-üç faizi yerli istehsal hesabına həyata keçirilir: “Əsas faiz idxal mənbələri hesabına formalaşdırılır. Çərəz kimi istifadə olunan günəbaxan tumlarının istifadəsi üçün yerli məhsulun təxminən 65-70 faiz payı var. Eyni zamanda, günəbaxan dəninin yerli xammal payı 14 faizə yaxın təşkil edir. Hesablamalara görə, yaxın gələcəkdə günəbaxan dəninin yerli özünü təminetmə səviyyəsini 25 faizə yüksəltmək olar. Fermerlər daha məhsuldar, yağ çıxımı yüksək olan toxumlardan istifadə göstəricilərini getdikcə artırırlar”.



Firdovsi Fikrətzadə

F.Fikrətzadə vurğulayıb ki, Azərbaycanda qarğıdalı daha çox dən formasında istifadə edilir: “Az miqdarda qlükoza üçün xammal kimi istifadə olunur. Qarğıdalı yağının xammalı bütövlükdə idxal mənbəyi hesabına təmin olunur. Çünki bizim şəraitdə bunun yağ məqsədi üçün istehsal ənənəsi yoxdur. Yaxın gələcəkdə də belə olacaq”.

## YERLİ İSTEHSALI ARTIRMAQ OLAR?

İqtisadçı ekspert Xalid Kərimlinin sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi ilə bağlı bitki yağlarının qiyməti kəskin artmışdı: “Günəbaxan, qarğıdalı yağlarını dünya bazarına Ukrayna daha çox ixrac edir. Müharibənin ilkin dövründə onlar ixrac edə bilmədi və qiymətlər bir neçə dəfə artdı. 2022-ci ilin iyul ayından Türkiyənin vasitəçiliyi ilə taxıl dəhlizi işə düşdü. Eyni zamanda, Ukraynanın quru sərhədləri vasitəsi ilə qərbə ixrac həyata keçirildi. Nəticədə qiymətlər azaldı və demək olar ki, müharibə ilə bağlı qiymət artımı aradan qalxdı”.



Xalid Kərimli

X.Kərimli bildirib ki, ölkəmizdə günəbaxan, qarğıdalı istehsalını genişləndirmək mümkün deyil: “Bizim torpaqlar Rusiya və Ukraynadakı kimi münbit deyil. Bizim əkinə yararlı torpaqlarımız azdır. Orada da arpa, buğda əkilir. Bu o deməkdir ki, gələcəkdə də idxaldan asılı olacağıq. Özümüz bitki yağlarını hasil etsək belə, bu, məhsulun ucuz olacağı anlamına gəlmir”.

### TƏLƏB VƏ TƏKLİFDƏN ASILI OLAN QİYMƏT

Deputat Rüfət Quliyevin sözlərinə görə, biz bazar iqtisadiyyatı yolu ilə gedirik: “Bazar iqtisadiyyatının əsas qanunlarından biri də tələb-təklif, rəqabətdir. Təbii ki, tələb-təklifdən asılı olaraq qiymət formalaşır. İstənilən məhsul bol, tələbi az olanda qiymətlər ucuzlaşır. Burada mövsümi faktor da ola bilər. Yaxud kənd təsərrüfatı məhsulu çox yığılıb və emal edilib”.

Deputat əlavə edib ki, ölkə daxilində günəbaxan, qarğıdalı istehsalını genişləndirməklə xarici xammal bazarından asılılığı azaltmaq olar: “İstehsal nə qədər çox artsa, həmin məhsulların qiyməti ucuz olacaq”.



Rüfət Quliyev

## İDXAL-İXRAC RƏQƏMLƏRİNƏ NƏZƏR SALAQ

2023-cü ilin yanvar-oktyabrında Azərbaycanda 29,2 min ton günəbaxan istehsal edilib. Ötən ilin müvafiq dövründə isə bu rəqəm 28,5 min ton olub.

2022-ci ilin məlumatlarına əsasən, Azərbaycanda günəbaxanın əkin sahəsi 11.5 min hektar olub. 2022-ci ildə günəbaxanın əkin sahəsi 2015-ci ilə nisbətən 7,5 faiz, 2021-ci ilə nisbətən isə 3,6 faiz artıb.

Ötən ildə ölkəyə idxal olunan günəbaxan dəninin 41 faizi Çinin, 31,4 faizi Türkiyənin, 23,5 faizi isə Rusiyanın payına düşüb.

2022-ci ildə “Xam günəbaxan və ya saflor yağı və onun fraksiyaları” idxalının 89,6 faizi Rusiyanın, 10,4 faizi isə Türkiyənin payına düşüb. “Günəbaxan və ya saflor yağı və onun fraksiyaları” idxalının isə 90,3 faizi Rusiyanın, 6,4 faizi Türkiyənin və 1,9 faizi Ukraynanın payına düşüb.

Əlavə edək ki, 2022-ci ildə ölkəyə qarğıdalı idxalı 2015-ci ilə nisbətən 2,4 dəfə azalıb, 2021-ci ilə nisbətən isə 2,5 dəfə artaraq 75,9 min ton olub. 2022-ci ildə ölkəyə idxal olunan qarğıdalının 97,8 faizi Rusiyanın, 1,3 faizi isə Türkiyənin payına düşüb.

Ötən il ölkəyə idxal olunan “xam qarğıdalı yağı və onun fraksiyaları” 2021-ci ilə nisbətən 23,8 faizi azalaraq, 12,9 min ton, “qarğıdalı yağı və onun fraksiyaları” isə 23,7 faiz artaraq 4,5 min ton olub.

# TÜRKİYƏ TURİZMİNƏ AÇILAN YENİ PƏNCƏRƏ



**Diyarbəkir əsrlər boyu dini tolerantlıqdan uzaqlaşmayaraq, hər dövrdə etnik və dini mozaikasını qoruyub saxlamağa nail olub. Bu səbəbdən burada müxtəlif dövrlərə aid çoxlu məbəd tikilib və onların əksəriyyəti günümüzə qədər gəlib çatıb.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az









Diyarbəkir Türkiyə turizmində alternativ cazibə mərkəzinə çevrilməkdədir. Şəhər şərqdən Türkiyə turizminə açılan bir pəncərədir. Şəhər tarixi turizm potensialı ilə açıq səma altında muzey kimidir.

Diyarbəkir - bəşəriyyətin ilk məskunlaşdığı, ictimai quruluşu müəyyən edən qanunların yazıldığı, ilk məbədlərin yarandığı, Şumer, Babil kimi dünya sivilizasiyasının inkişafına töhfə verən sivilizasiyaların diyarıdır. Şəhər ümumilikdə Fars, Assur və Hurrilərin qurulduğu, zəngin bir mədəniyyət xəzinəsinə malikdir. Bir çox sivilizasiyaların beşiyi olmuş şəhər öz memarlıq və mədəniyyətində hər bir sivilizasiyanın izlərini yaşatmaqdadır.

Türkiyə Mədəniyyət Nazirliyinin təşkil etdiyi Diyarbəkir Sur Mədəniyyət Yolu Festivalı günlərində mediatur çərçivəsində bölgəyə axışan insanların Diyarbəkirin zəngin mədəniyyəti ilə yanaşı, adını tarixə yazdıran abidələrini də heyranlıqla ziyarət etdiklərinin şahidi olduq.

## ÇİN SƏDDİNDƏN SONRA İKİNCİ

Diyarbəkir qalası (Diyarbəkir Surları) Böyük Çin Səddindən sonra dünyanın ən uzun və ən geniş müdafiə divarıdır. Divarların təməlinin qoyulduğu dəqiq tarix məlum deyil. 349-cu ildə Bizans imperatoru II Konstantin şəhəri Sasanilərə qarşı divarlarla əhatə edərək, bölgənin hərbi və inzibati mərkəzinə çevirib.

## SİVİLİZASİYALARIN KİTABƏLƏRİ

Qala divarlarının əhatə etdiyi İç Qala Muzey Kompleksi ziyarətçilərinə tarixə səyahət təklif edir.

İç Qala Sur rayonunun inzibati mərkəzi sayılır. Burada Artuklu Sarayı, Jandarma Binası, Köhnə həbsxana, Kolordu binası, ədliyyə binaları, Komandir Atatürk Binası, Hz. Süleyman məscidi və 27 səhabə türbəsi, Müqəddəs Georgi kilsəsi, Aslan bulağı və Artuklu tağı yerləşir.

İç Qalanın xaricindəki divarlar 82 qala və dörd ayrı qapıdan ibarətdir. Bəzi qalalar əfsanələri, fiqurları və yazıları ilə diqqəti cəlb edir. Diyarbəkir surlarının uzunluğu 5500 metrdir və hündürlüyü dəyişir. Üzərində bir çox sivilizasiyaların kitabələri var.

2015-ci ildə Almaniyanın Bonn şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin yığıncağında "Diyarbəkir Divarları və Hevsel Bağları Mədəni Peyzaj Bölgəsi" UNESCO-nun Dünya İrs Siyahısına daxil edilərək mədəni və tarixi cəhətdən unikal quruluşu ilə dünyəvi dəyər kimi qeydə alınıb.

"İç Qala çox məşhurdur. "Diyarbəkirin ürəyi" deyə bilərik. Xüsusilə həftə sonları bu ərazi insanlarla dolu olur. Tarixi ərzində müxtəlif qurumlar burada xidmət göstərdiyi üçün inzibati rayon sayılır. İndi bura Muzey Kompleksi ərazisidir. Türkiyədə bunun başqa nümunəsi yoxdur", - deyə bələdçi Ramazan Çelikturk məlumat verir.

## ANADOLUNUN İLK VƏ ƏN QƏDİM MƏSCİDİ

Diyarbəkir əsrlər boyu dini tolerantlıqdan uzaqlaşmayaraq, hər dövrdə etnik və dini mozaikasını qoruyub saxlamağa nail olub. Bu səbəbdən burada müxtəlif dövrlərə aid çoxlu məbəd tikilib və onların əksəriyyəti günümüzə qədər gəlib çatıb.

Şəhərdəki tarixi məs-cidlərin ən böyüyü olan Ulu Cami Anadolunun ilk və ən qədim məscidlərindən biridir. Məşhur Şam Əməvi Məscidinin əksi olaraq şərh edilən Diyarbakır Ulu Camisi islam dünyasının 5-ci Hərəm-i Şərifi olaraq qəbul edilir. 900 ildən çox tarixi olan həyətdəki günəş saatı məşhur alim El-Cəzirinin əsəridir.

Hz. Süleyman-Nəsiriyə Məscidi 1155-1160-cı illərdə tikilib. Məsciddə Xalid Bin Validin oğlu Süleyman və Diyarbəkirin ərəblər tərəfindən tutulması zamanı şəhid olan 27 səhabə dəfn olunub. Səhabələrin məzarının burada olması məscidi ziyarətgaha çevirib. Diyarbəkirdə tarix boyu müsəlmanlar, xristianlar, yəhudilər və müxtəlif məzhəblərə məxsus insanlar bir yerdə yaşayıblar. Müqəddəs Georg kilsəsi, Assuriya Qədim Məryəm kilsəsi, Mar Petyun Chaldean kilsəsi və s. qədim məbədlər bu tarixin sübutlarıdır.




## MÜHÜM TİCARƏT KÖRPÜSÜ

Ongözlü körpü mühüm ticarət yollarının kəsişməsində yerləşir. Dəclə çayı üzərindəki körpü on tağdan ibarətdir. Qismən və ya tamamilə dağıldığı və bir neçə dəfə yenidən inşa edildiyi hesab edilən körpünün inşa ili üzərindəki kitabədə qeyd edilən 1065-ci il - Mərvanilər dövrünü əhatə edir.

## NEOLİT DÖVRÜNDƏN OSMANLIYA QƏDƏR

Diyarbəkirin ilk muzeyi olan Arxeologiya Muzeyi İç Qaladakı muzey kompleksində 19-cu əsrdə tikilmiş iki binada yerləşir. 2023-cü ilə qədər onun kolleksiyasında 30 min eksponat olub. Arxeologiya Muzeyində aparılan qazıntılar, alış-veriş və müsadirə yolu ilə əldə edilən əsərlər Neolit dövründən başlayaraq Köhnə Tunc, Assur, Urartu, Ellinistik, Roma, Bizans, Artuqlu, Səlcuqlu, Ağqoyunlu və Osmanlı dövrlərinə aid edilir, xronoloji və tipoloji ardıcıllıqla sərgilənir.

## ZERZEVAN QALASI

Diyarbəkirdən 45 kilometr məsafədə 124 metr hündürlükdə yerləşən Zerzevan qalası təkcə yerli sakinlərin deyil, həm də bölgəyə gələn turistlərin baş çəkdiyi abidədir. İndi qalanın xarabalıqları qalıb. Diyarbəkir və Mardin rayonları arasında yerləşən qala Bizans dövründən Roma imperiyasının sərhəd qarnizonu olub.

Qala həm yerüstü, həm də yeraltı quruluşa malikdir. Ərazidə aparılan arxeoloji qazıntılar yeraltı tikililərin mövcudluğunu üzə çıxarıb. Tapılan Mitra məbədinin sirrini açmaq üçün yenidən qazıntılara başlanacaq. Ərazi turizm üçün açıqdır.

## TARİX QOXAN YERLƏR

Diyarbəkir minillik tarixi, ədəbiyyatı, inancları və həyat tərzi ilə bir folklor xəzinəsidir. Yerli xalq rəqsləri kifayət qədər rəngarəngdir. Nağara və tütəklərin müşayiəti ilə ifa edilən Diyarbəkir rəqsləri bölgədəki tayfaların sevgisindən, iztirabından, bəzən də sosial vəziyyətindən bəhs edir.

Minlərlə illik tarixə malik olan şəhərdə bir çox sivilizasiyanın qoyub getdiyi müxtəlif yemək mədəniyyətləri mövcuddur.

Ənənəvi sənətkarlıq növləri arasında zərgərlik, ipəkçilik və misgərlik xüsusi yer tutur.

Diyarbəkirə gələn yerli və xarici turistlər tarixi mahalı böyük məmnuniyyətlə ziyarət edir və şəhərdən xoş təəssüratlarla ayrılırlar.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
2 DEKABR ŞƏNBƏ 2023
www.kaspi.az




Əsas rəqibləri “Molde” ilə görüşdən bir xalla ayrılmağı bacaran ağdamlılar daha bir tarix yazmağa çox yaxındırlar. Son turda “Molde”nin “Bayer”lə qarşılaşmada qələbə qazanmaq şansı çox olmadığından “Hekken”lə Bakıda əldə ediləcək heç-heçə də “Qarabağ”ın tarixində ilk dəfə Avropa Liqasının qrupundan ikinci yerin sahibi kimi çıxmasına yol aça bilər.

## ERLİNQ MOE: “QARABAĞ” ÇOX GÜCLÜ KOMANDADIR”

“Molde”ni baş məşqçisi Erlinq Moe isə sərfəli nəticə əldə edə bilməsələr də, oyun baxımından “Qarabağ”ı üstələdiklərini vurğulayıb: “Bakıdakı oyunda “Qarabağ” bizdən daha yaxşı perfromans göstərmişdi. Ona görə qalib gəldilər. Amma bu gün 90 dəqiqə daha yaxşı tərəf biz idik”. O, komandasının Ağdam təmsilçisindən daha yaxşı çıxış etdiyini söyləyib: “Komandamla fəxr edirəm. “Qarabağ” çox güclü komandadır. Bu komandanı udmaq çox çətindir. Onlara qarşı çox yaxşı performans göstərdik. Oyunçularıma təşəkkür edirəm. Bu performansı “Bayer”ə qarşı da göstərməyə çalışacağıq”. Mütəxəssis “Qarabağ”ın Avropa Liqasında uğurlu çıxışını istəyərdinizmi” sualını bu cür cavablandırıb: “Qarabağ”ı hələ təbrik etməyəcəyəm. Çünki şansımız var. “Bayer”lə matçımız olacaq. “Qarabağ” çox yaxşı komandadır”.


Erlinq Moe

# TARİXİ UĞURUN BİR ADDIMLIĞINDA

UEFA Avropa Liqasındakı təmsilçimiz “Qarabağ” tarixində ilk dəfə olaraq qrupdan çıxmaq istiqamətində yaxşı şans əldə edib. Ağdamlılar çətin Norveç səfərindən əsas rəqibləri “Molde” ilə görüşdən bir xalla qayıtmağı bacarıblar. Rəqiblər arasında gərgin keçən görüş 2:2 hesabı ilə başa çatıb. Nəticədə hər iki komanda xallarının sayını 7-yə çatdırıb. İndi H qrupunda “Qarabağ” 2-ci, “Molde” isə 3-cüdür. “Qarabağ” bu heç-heçə ilə Konfrans Liqasının pley-off mərhələsinə vəsiqəni təmin edib. Növbəti turda “Qarabağ” “Hekken”lə, “Molde” isə “Bayer”lə qarşılaşacaq.

“Molde”nin “Bayer”lə qarşılaşmada qələbə qazanmaq şansı çox olmadığından “Hekken”lə Bakıda heç-heçə də “Qarabağ”ın tarixində ilk dəfə Avropa Liqasının qrupundan çıxmasına yol aça bilər. Amma istənilən halda hansı komandanın mübarizəni Avropa Liqasında, hansının Konfrans Liqasının pley-offunda davam etdirəcəyi son turun oyunlarından sonra məlum olacaq. Beləliklə, ardıcıl 11 ildir bizi avrokubokların qrup mərhələsinə öyrədən komandamız üçüncü ildir dalbadal qrupdan çıxmağı da bacarır.

**“MOLDE” - “QARABAĞ”**

**2:2**

**QOLLAR: OLAVİO JUNİNYO, 11 (0:1), KRİSTİAN ERİKSEN, 83 (1:1), 88 (2:1), BƏHLUL MUSTAFAZADƏ, 90+5 (2:2)**

**QURBAN QURBANOV: “ÇOX VACİB XAL QAZANDIQ”**

Ağdam təmsilçisinin baş məşqçisi Qurban Qurbanov matçdan sonra keçirilən mətbuat konfransında çox uğurlu nəticə əldə etdiklərini bildirib: “Oyunun gedişatına baxsaq, belədir. Daha yaxşısını gözləyirdim. Fikirləşirdim ki, o qədər çətinliyimiz olmaz, meydanaçaya daha tez uyğunlaşarıq. Amma havaya, meydançaya tam uyğunlaşa bilmədik. Demişdim ki, çətinliklərə dözmək lazım olacaq. Futbolçular bunu bacardı.

Sonda da gedişatı dəyişdilər, çox vacib xal qazandıq”. Q.Qurbanov qrupdakı son oyuna daha yaxşı hazırlaşacaqlarını deyib: “Şansımız varsa, bundan maksimum istifadə edəcəyik. Bir oyunumuz qalıb. Daha soyuqqanlı və daha da bacarıqlı olmağa çalışmalıyıq. “Hekken”in qələbəsi yoxdur, uduzub bütün oyunları. Çox istəkli gələcəklər. Buna hazır olmalıyıq. Onlar qələbə istəyəcək. Biz oyuna çox intizamlı hazırlaşmalıyıq. Sadəcə meydanda verilən tapşırıqları, oyunumuzu düzgün icra etməliyik”.

Təcrübəli mütəxəssis bərabərlik qolunu 90+5-ci dəqiqədə vurulmasına da münasibət bildirib: “Son dəqiqələrdə həm buraxılan, həm vurulan qollar komandanın böyüməsi üçün vasitədir. Belə oyunlarda son dəqiqələrdə bu cür qol vurmaq komandaya əlavə motivasiya, inam verir. Bakıda “Bayer”lə matçda son dəqiqə buraxılan qol futbolçulara çox təsir etmişdi. Amma həmin oyundan futbolçularım çox şey götürdülər. Belə qollar böyük oyunlara bənzəyir”.


Qurban Qurbanov

## KEVİN MEDİNA CƏZALI DURUMA DÜŞÜB

“Qarabağ”ın futbolçusu Kevin Medina matçın 2-ci hissəsində sarı vərəqə alaraq cəzalı duruma düşüb. Təcrübəli müdafiəçi Bakıda “Hekken”lə keçiriləcək qarşılaşmanı buraxmalı olacaq. O, hakimin qərarından narazı olduğunu bildirib: “Hakimin həmin epizodda mənə sarı vərəqə göstərməyinə nə lüzum var idi? Mənə dedi ki, meydanı tez tərk et. Mən də bildirdim ki, ağrım var, necə sürətli çıxım? Bəzən hakimlər də aqressiv olurlar və baş rolda olmağa çalışırlar”.

Medina Norveçdən yaxşı nəticə ilə döndüklərini də qeyd edib: “Yaxşı rəqibə qarşı oynadıq. “Molde”, xüsusən də, evdə təhlükəli olur. Yenə də məlum şərtlər altında istəyimizə nail olduq. Əsas da budur. Rəqib çox güclü komanda idi. Ümumi şərtlər heç də bizim xeyrimizə deyildi. Məqsədimiz meydanı sərfəli nəticə ilə tərk etmək idi. Hesabda geridə olsaq da, sona qədər xarakter göstərdik”.

Zədələnərək məcburi əvəzlənməli olan Medina ağrıları olduğunu bildirib: “MRT müayinəsindən sonra vəziyyətimə tam aydınlıq gələcək”.


Kevin Medina

## ERİKSEN HƏFTƏNİN ƏN YAXŞISI ADINA NAMİZƏD OLUB

Qeyd edək ki, Avropa Liqasında qrup mərhələsinin 5-ci turunun oyunlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər məlum olub. “Molde”dən Kristian Eriksen də namizədlər siyahısındadır. Ondan başqa “Liverpul”da Kodi Qakpo, “Frayburq”dan Mixel Qreqoriş və “Marsel”dən Pyer-Emerik Obameyanq bu ada namizəddirlər.

Qalib UEFA-nın saytında keçirilən sorğudan sonra məlum olacaq.


Kristian Eriksen